Rəsmi dövlət qəzeti



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 152 (8175) ÇƏRŞƏNBƏ AXŞAMI, 16 iyul 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# Aqrar sektor həm də ixraca köklənir

**Bu ilin birinci rübündə kənd təsərrüfatı məhsulları istehsalında əldə edilən 4,2 faizlik artım bütünlükdə aqrar sektorun dinamik inkişafından xəbər verir. Ənənəvi məhsulların istehsalının artımı ilə bağlı nə qədər ciddi addımlar atılıbsa, bir o qədər də digər sahələrə diqqət yetirilib. Ölkədə yaradılmaqda olan 45 aqropark isə ixrac potensialının inkişafında inqilabi nəticələrə nail olmağa hədəflənib.**

Azərbaycan dünyada yeni ixrac bazarlarının axtarışındadır və bu istiqamətdə atılan ilk addımlar artıq bəhrəsini verir. Müxtəlif ölkələrə ixrac missiyalarının ezamı, səfirliklərin nəzdində ticarət nümayəndəliklərinin, dünyanın müxtəlif ölkələrində ticarət evlərinin yaradılması davam edir. Prezident bu sahədə görülən işlərdən razı qalsa da hesab edir ki, daha fəal və ciddi nəticələrə nail olmaq lazımdır.

Köhnə bazarlarda daha əminliklə oturmaq, yeni bazarlarda nüfuz qazanmaq üçün ölkənin aqrar sektorunda geniş islahatlar aparılır, ənənəvi məhsulların istehsalı dövlət səviyyəsində stimullaşdırılır. Məsələn, ölkədə 400 hektar sahədə yeni istixana kompleksləri yaradılır, onların sahələrinin genişləndirilməsi üçün maliyyə vəsaiti ayrılır.

Aqrar sektorda ixracın nəbzini tutmaqda "Azexport" portalı əvəzsiz rol oynayır. Bura daxil olan sifarişlər marketinq üçün əhəmiyyətli vasitədir. Əvvəl kortəbii görülən işlər indi bu portal vasitəsi ilə həyata keçirilir. İstehsalçılara məhsullar barədə məlumatlar verilir, xaricdən sifarişlər alınır. Portal dünya bazarında hansı məhsula daha çox tələbat olduğunu görməyə və bazarın tələblərinə uyğunlaşmağa kömək edir.

Azərbaycanda güclü emal sənayesi yaradılsa da, onlarca konserv zavodu tikilsə də, dövlət başçısı belə hesab edir ki, mövcud inkişafla kifayətlənmək olmaz. Yeni emal sahələrinin yaradılması və daha çox hazır məhsulun dünya bazarına çıxarılması lazımdır.

Prezident İlham Əliyev Nazirlər Kabinetinin bu ilin birinci rübünün sosial-iqtisadi yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasındakı nitqində ixracyönümlü kənd təsərrüfatı sahələri üzrə işlərin bundan sonra daha qətiyyətlə davam etdiriləcəyini bildirmiş, o cümlədən üzümçülük və şərabçılığın problemlərinin ciddi təhlil edilməsinin zəruriliyindən danışmışdır: "İndi ilkin məlumat ondan ibarətdir ki, bizim kifayət qədər emal gücümüz, yəni şərab zavodlarımız var, amma onların bir çoxu çox zəif işləyir. Yəni istehsal gücünün 20-30 faizi səviyyəsində işləyir. Bilmirəm, vaxtilə sahibkarlar bu zavodları nəyə görə tikiblər, bəlkə pulları çox idi, bilmirdilər ki, pulları haraya yatırsınlar - tikiblər, amma səmərəsiz istifadə edirlər. Bu, heç bir məntiqə sığmayan məsələdir. Ona görə bizim indi vəzifəmiz ondan ibarətdir ki, bu şərab zavodlarını sahibkarlar düzgün şəkildə idarə etsinlər. Üzüm istehsalı bizdə artır, yeni üzüm bağları salınır və mən bunu alqışlayıram. Şərabın ixracı da artır və burada da dövlət öz rolunu oynayır. İxrac missiyaları, sərgilərdə iştirakımız bunu mümkün edir".

İxracyönümlü sahələrdən biri də pambıqçılıqdır. İndi bu sahədə təxminən 200 minədək insan işləyir. Pambığın satınalınma qiyməti artırılıb, emalı üçün Mingəçevir Yüngül Sənaye Parkı yaradılıb. Bu sahə yerli istehsala təkan verməklə yanaşı, ixracı da artırır. Əgər 2015-ci ildə cəmi 35 min ton pambıq istehsal edilmişdisə, keçən il 207 min tona çatmışdır.

Dünya bazarlarında zeytun yağına böyük tələbat olsa da, cəmi bir neçə ölkədə istehsal edilir. Azərbaycanın bu, həmçinin digər sahələrdə layiqli yer tutması üçün geniş potensialı vardır. Reallıq ondan ibarətdir ki, bütün ölkə miqyasında meyvə bağlarının sahəsi genişlənir və fermerlər artıq əvvəlki kimi kortəbii qaydada yox, yalnız xarici bazarda tələbat olan meyvə növlərinin sahəsinin artırılmasına fikir verirlər. Çayçılıq, çəltikçilik, fındıqçılıq, baramaçılıq, sitrus meyvəçiliyi, tütünçülük və digər sahələr inkişaf etdirilir. Bu sahələrin genişləndirilməsi ilə bağlı dövlət səviyyəsində bir neçə müşavirə keçirilmiş, hədəflər dəqiqləşdirilmiş, perspektivlər təyin edilmiş, əlavə maliyyə vəsaitləri ayrılmışdır.

Nəticələr ürəkaçandır. Məsələn, əgər 2015-ci ildə 240 kiloqram barama tədarük olunmuşdusa, 2017-ci ildə bu rəqəm 240 tona çatmışdır. Cari il isə tədarük ediləcək barama 500 tona çata bilər. Bu da Şəki İpək Kombinatının ilboyu fasiləsiz işləməsi deməkdir.

2015-ci ildən salınmağa başlanılmış fındıq bağlarının sahəsi 2016-cı ildə 40 min hektara çatmışdır. Bu il salınan fındıq bağlarının ümumi sahəsinin 70 min, gələn il 80 min hektara çatdırılacağı gözlənilir. Belə olarsa, Azərbaycan dünyada fındıq istehsal edən ölkələrin birinci üçlüyü sırasına düşəcək.

*Ardı 4-cü səh.*

## Birinci vitse-prezident Mehriban ƏLİYEVA:
## "Heydər Əliyev nailiyyətləri və qələbələri Azərbaycanın tarixində və Azərbaycan xalqının ürəyində əbədi yaşayacaq"



Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev bütün ömrü boyu xalqına, vətəninə sədaqətlə xidmət etmişdir. Müasir Azərbaycan tarixinin bütün səhifələrində, istər iqtisadiyyat, istər xarici siyasət, istər elm və mədəniyyətdə onun silinməz izlərini görürük.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəsmi "Instagram" səhifəsində edilən paylaşımda yer alıb.

Paylaşımda qeyd edilir ki, Heydər Əliyev nailiyyətləri və qələbələri Azərbaycanın tarixində və Azərbaycan xalqının ürəyində əbədi yaşayacaq və gələcək nəsillər üçün mərdlik, müdriklik və vətənpərvərlik nümunəsi olacaqdır.

## R.H.Əliyevin "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycanda memarlıq sənətinin inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə Rasim Həsən oğlu Əliyev "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 iyul 2019-cu il*

## Azərbaycan-Gürcüstan-Türkiyə parlamentlərinin xarici əlaqələr komitələrinin üçtərəfli görüşü uğurlu platformadır



*Foto Fərman BAĞIROVUNDUR*

**İyulun 15-də Milli Məclisin Sədri Oqtay Əsədov Bakıda keçirilən Azərbaycan-Gürcüstan-Türkiyə parlamentlərinin xarici əlaqələr komitələrinin üçtərəfli toplantısının iştirakçıları ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, spiker üçtərəfli görüşün parlamentlərarası münasibətlərimizin daha da inkişafına dəyərli töhfə verəcəyinə inamını bildirib. Qeyd edib ki, bu cür görüşlərin müntəzəm keçirilməsi beynəlxalq təşkilatlar çərçivəsində çoxtərəfli əməkdaşlıq üçün möhkəm zəmin yaradır.

Görüşdə bildirilib ki, bu formatda tədbirlərin keçirilməsi ənənəsi 2014-cü ilin aprelində məhz Bakıda yaranıb. Sonrakı görüşlər müvafiq olaraq Gürcüstanda və Türkiyədə keçirilib. Azərbaycan, Gürcüstan və Türkiyə arasında üçtərəfli əsasda əməkdaşlıq həm ölkələrimizin liderləri, həm də ayrı-ayrı struktur təşkilatlarımızın rəhbərləri arasında formalaşdırılıb. Bu cür çoxtərəfli əməkdaşlıq platformasının qurulması anlaşılan bir haldır, çünki Azərbaycan, Gürcüstan və Türkiyə arasında əməkdaşlıq regional sülhün və sabitliyin, hərtərəfli inkişafın əsas dəstəkləyici amillərindən biridir. Azərbaycan, Türkiyə və Gürcüstan Cənubi Qafqaz regionunda sülhün və sabitliyin təmin olunması və möhkəmləndirilməsində maraqlıdır. Azərbaycanın ayrı-ayrılıqda həm Türkiyə, həm də Gürcüstan ilə yüksəksəviyyəli, strateji xarakterli əlaqələri mövcuddur. Bu əlaqələr gündən-günə inkişaf edir.

Spiker belə bir fikri vurğulayıb ki, qloballaşan dünyada dövrün çağırışlarına cavab vermək baxımından hər üç ölkə parlamentindəki xarici əlaqələr komitələri üzvlərinin, o cümlədən beynəlxalq təşkilatlarda təmsil olunan digər deputatların mütəmadi görüşləri çox önəmlidir.

Türkiyə və Gürcüstan nümayəndələri Azərbaycan parlamentində yüksək səviyyədə təşkil olunmuş bu tədbirə verdiyi dəstəyə görə spiker Oqtay Əsədova təşəkkür edib, üçtərəfli görüşün nəticələrini yüksək dəyərləndiriblər. Bildirilib ki, belə tədbirlər regionda baş verən proseslərin müzakirəsi, həyatın müxtəlif sahələrində əlaqələrin daha da dərinləşməsi üçün uğurlu platformadır.

Görüşdə Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyev, Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov, Türkiyə Böyük Millət Məclisinin Xarici işlər komitəsinin sədri Volkan Bozkır, Gürcüstan parlamentinin Xarici əlaqələr komitəsinin sədri Sofio Katsarava, Türkiyənin Azərbaycandakı səfiri Erkan Özoral və digər rəsmi şəxslər iştirak ediblər.

## Çəkilən zəhmət bəhrəsini verir



**Hər il bol taxıl yetişdirən qazaxlılar bu il də yüksək məhsuldarlığa nail olmuşlar. Bunu yolboyu uzanan taxıl zəmilərinə baxdıqca bir daha yəqin etmək mümkündür. Artıq xeyli vaxtdır ki, fermerlər zəhmətlə yetişdirdikləri məhsulun yığımına başlamışlar.**

Xatırladaq ki, keçən il rayon üzrə 9102 hektardan 33309,5 ton buğda, 3527 hektardan 8676,7 ton arpa götürülmüş, ümumilikdə 41986,2 ton taxıl istehsal olunmuşdur. Cari ildə də taxıl səpilmiş sahələrə yüksək aqrotexniki qulluq göstərilərək bol məhsul yetişdirilmişdir. 4250 hektar arpa sahəsindən 10902,2, 8305 hektar buğda sahəsindən 31427,8 ton məhsul tədarük edilmişdir. Orta məhsuldarlıq 33,7 sentner olmuşdur. Aslanbəyli, Qaymaqlı, Daş Salahlı, Yuxarı Salahlı, Birinci Şıxlı və digər kəndlərdə daha yüksək məhsuldarlıq əldə edilmişdir.

*Ardı 4-cü səh.*

### Bu barədə düşünək

## Müsabiqə keçirmək, yoxsa inşa yazdırmaq

**Allah rəhmət eləsin Həsən bəy Zərdabiyə. 144 il öncə - 1875-ci il iyulun 22-də nəşrinə başladığı "Əkinçi" qəzeti ilə xalqımıza Milli Mətbuat Günü adlı əvəzsiz bir tarix bəxş etmişdir. Artıq xeyli vaxtdır bu tarixi təkcə jurnalistlər yox, bütün Azərbaycan ictimaiyyəti əziz bayram kimi qeyd edir.**

Xüsusən dövlət səviyyəsində yaddaqalan müxtəlif tədbirlər keçirilir. Təkcə milli mətbuatımızın yubileylərində jurnalistlərin ölkənin ali mükafatlarına layiq görülməsi və KİV nümayəndələrinə dövlət tərəfindən mənzillərin hədiyyə olunmasını göstərmək kifayətdir ki, Azərbaycan hakimiyyətinin ölkə mediasına verdiyi qiymətin və dəstəyin sözdə yox, əməldə hansı səviyyədə olduğu bir daha təsdiqlənsin.

*Ardı 4-cü səh.*



# Standartlaşdırma haqqında

## Azərbaycan Respublikasının Qanunu

Bu Qanun Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 24-cü bəndinə uyğun olaraq, standartlaşdırmanın məqsəd və prinsiplərinin, standartlaşdırma sahəsində normativ sənədlərin hazırlanması, qəbul edilməsi və tətbiqi prosesinin, standartlaşdırma fəaliyyətlərinin maliyyələşdirilmə mənbələrinin, standartlaşdırma sahəsində beynəlxalq əməkdaşlıq məsələlərinin və standartlaşdırma subyektlərinin bu sahədə fəaliyyətinin hüquqi əsaslarını müəyyən edir.

### 1-ci fəsil
### ÜMUMİ MÜDDƏALAR

**Maddə 1. Əsas anlayışlar**

1.0. Bu Qanunun məqsədləri üçün aşağıdakı əsas anlayışlardan istifadə edilir:

1.0.1. **standartlaşdırma** - standartlaşdırma obyektlərinin təhlükəsizliyinin və keyfiyyətinin yüksəldilməsinə yönəldilmiş, kütləvi və təkrar istifadə üçün nəzərdə tutulan normativ sənədlərin hazırlanması, qəbulu və tətbiqi prosesindən ibarət fəaliyyət;

1.0.2. **standart** - təkrar və ümumi istifadə üçün nəzərdə tutulan, mala (işə, xidmətə), onunla əlaqəli prosesə (o cümlədən idarəetmə sisteminə) və istehsal metodlarına dair norma, qayda və tövsiyələri müəyyən edən, tətbiqi könüllü olan normativ sənəd;

1.0.3. **beynəlxalq standart** - standartlaşdırma üzrə beynəlxalq təşkilatlar tərəfindən qəbul olunmuş standart;

1.0.4. **regional standart** - standartlaşdırma üzrə regional təşkilatlar tərəfindən qəbul olunmuş standart;

1.0.5. **dövlət standartı** - milli standartlaşdırma qurumu tərəfindən qəbul edilən standart;

1.0.6. **ilkin dövlət standartı** - tətbiqi müvəqqəti olan, istifadəsi zamanı lazımi təcrübənin əldə olunması üçün nəzərdə tutulan standartlaşdırma üzrə normativ sənəd;

1.0.7. **dövlətlərarası standartlar** - iki və daha çox dövlətin qarşılıqlı razılığı əsasında qəbul olunmuş və bir-biri ilə müvafiq münasibətlərdə istifadə etdiyi standartlar;

1.0.8. **istinad edilmiş standart** - texniki reqlamentdə müəyyən edilmiş əsas tələblərin həyata keçirilməsi və texniki reqlamentin tətbiqi məqsədilə hazırlanmış standart;

1.0.9. **texniki komitə** - standartlaşdırma üzrə normativ sənədlərin hazırlanması məqsədi ilə maraqlı tərəflərin iştirakı ilə yaradılan məşvərətçi qurum;

1.0.10. **maraqlı tərəflər** - standartlaşdırma üzrə normativ sənədləri tətbiq edən və ya həmin sənədlərin hazırlanmasında maraqlı olan dövlət orqanları (qurumları), hüquqi və fiziki şəxslər;

1.0.11. **texniki şərtlər** - mala (işə, xidmətə), onunla əlaqəli proseslərə (o cümlədən idarəetmə sistemlərinə) və istehsal metodlarına dair texniki tələbləri müəyyənləşdirən, tətbiqi könüllü olan normativ sənəd;

1.0.12. **standartlaşdırma üzrə dövlət fondu** - müvafiq dövlət orqanları (qurumları), beynəlxalq, regional və xarici ölkələrin aidiyyəti təşkilatları ilə, habelə yerli təşkilatlarla qarşılıqlı əlaqə şəraitində qurulan və standartlaşdırma sahəsində sənədlərin məcmusundan ibarət olan və milli standartlaşdırma qurumu tərəfindən idarə olunan informasiya resursu;

1.0.13. **rəsmi nəşr** - standartlaşdırma üzrə dövlət fondu bazasında standartlaşdırma üzrə normativ sənədlərin milli standartlaşdırma qurumu tərəfindən kağız və elektron daşıyıcılarda nəşr edilməsi;

1.0.14. **rəsmi yayım** - müəlliflik hüquqları qorunmaqla, təşkilatların, fiziki və ya hüquqi şəxslərin müvafiq sorğuları əsasında milli standartlaşdırma qurumu tərəfindən rəsmi nəşrin təqdim edilməsi və ya satışı;

1.0.15. **standartlaşdırma obyekti** - mal (iş, xidmət), onunla əlaqəli proses (o cümlədən idarəetmə sistemi), istehsal metodu;

1.0.16. **standartların aktuallaşdırılması** - standartlaşdırma üzrə normativ sənədlərin aktual vəziyyətdə saxlanılması üçün onların nüsxələrinə müəyyən edilmiş qaydada dəyişikliklərin edilməsi və (və ya) onların qüvvədə olma müddəti, əvəz olunması və ya ləğv edilməsi ilə bağlı proses;

1.0.17. **uyğunlaşdırılma** - özündə elm və texnikanın ən yeni nailiyyətlərini əks etdirən və malın (işin, xidmətin), onunla əlaqəli prosesin (o cümlədən idarəetmə sisteminin), istehsal metodunun keyfiyyət səviyyəsinə və rəqabətqabiliyyətliliyinə müasir tələbləri müəyyən edən beynəlxalq, regional, dövlətlərarası və xarici dövlətlərin standartlarının milli maraqlar üçün istifadəsi və tətbiqi üzrə fəaliyyət;

1.0.18. **milli standartlaşdırma qurumu** - standartlaşdırma sahəsində dövlət siyasətindən irəli gələn işləri həyata keçirən, standartlaşdırma üzrə işlərin əlaqələndirilməsini təmin edən və standartlaşdırma üzrə beynəlxalq və regional təşkilatlarda Azərbaycan Respublikasının maraqlarını təmsil edən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum);

1.0.19. **konsensus** - maraqlı tərəflərin əksəriyyətinin əhəmiyyətli məsələlər üzrə ciddi etirazının olmaması ilə xarakterizə edilən və bütün tərəflərin fikirlərinin nəzərə alınmasına və fərqli baxışların uzlaşdırılmasına yönəldilmiş prosedur nəticəsində əldə olunan ümumi razılıq;

1.0.20. **standartlaşdırma sahəsində normativ sənədlərin yoxlanılması** - təkmilləşdirilməsinə və ya ləğvinə ehtiyac olub-olmamasını müəyyən etmək məqsədilə standartlaşdırma üzrə normativ sənədə baxılması;

1.0.21. **təsərrüfat subyekti** - istehsalçı, idxalçı və ticarət nümayəndəsi (agent);

1.0.22. **idarəetmə sistemi** - konkret məqsədə çatmağı təmin edən prosedur və proseslərin məcmusu;

1.0.23. **uyğunluğun qiymətləndirilməsi** - malın (işin, xidmətin), onunla əlaqəli prosesin (o cümlədən idarəetmə sisteminin), istehsal metodunun standartlarda göstərilən tələblərə uyğunluğunun müəyyən edilməsi prosesi;

1.0.24. **uyğunluğun qiymətləndirilməsinin obyektləri** - mal (iş, xidmət), onunla əlaqəli proseslər (o cümlədən idarəetmə sistemləri), istehsal metodları.

**Maddə 2. Qanunun tətbiq dairəsi**

2.1. Bu Qanun standartlaşdırma sahəsində yaranan münasibətləri tənzimləyir və bu sahədə fəaliyyət göstərən bütün dövlət orqanlarına (qurumlarına), fiziki və hüquqi şəxslərə şamil olunur.

2.2. Bu Qanunun müddəaları malın (işin, xidmətin), onunla əlaqəli prosesin (o cümlədən idarəetmə sisteminin), istehsal metodunun təhlükəsizliyinə dair məcburi tələblərin müəyyən edilməsinə, həmin məcburi tələbləri müəyyən edən normativ hüquqi aktlara, eləcə də bu normativ hüquqi aktlar üzrə aparılan uyğunluğun məcburi qiymətləndirilməsi məsələlərinə şamil edilmir.

2.3. Bu Qanun təhsil, milli mühasibat uçotu, dövlətin təhlükəsizliyi və müdafiəsi ilə bağlı standartlara şamil edilmir.

2.4. Ələt azad iqtisadi zonasında standartlaşdırma sahəsində yaranan münasibətlər "Ələt azad iqtisadi zonası haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq tənzimlənir.

**Maddə 3. Standartlaşdırma haqqında Azərbaycan Respublikasının qanunvericiliyi**

Standartlaşdırma haqqında Azərbaycan Respublikasının qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyasından, bu Qanundan, digər normativ hüquqi aktlardan və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən ibarətdir.

**Maddə 4. Standartlaşdırmanın məqsədləri və prinsipləri**

4.1. Standartlaşdırmanın məqsədləri aşağıdakılardır:

4.1.1. malın (xidmətin, işin), onunla əlaqəli prosesin (o cümlədən idarəetmə sisteminin), istehsal metodunun sərbəst hərəkəti üçün şərait yaradılması və beynəlxalq ticarətdə lüzumsuz texniki maneələrin aradan qaldırılması;

4.1.2. daxili və xarici bazarda rəqabətə davamlılığı artırmaq məqsədi ilə malın (xidmətin, işin), onunla əlaqəli prosesin (o cümlədən idarəetmə sisteminin), istehsal metodunun keyfiyyətinin və işçi heyətinin bacarıqlarının təkmilləşdirilməsi;

4.1.3. malların və onlara dair ehtiyat hissələrinin texniki, texnoloji və informasiya uyğunluğunun, eləcə də qarşılıqlı əvəz olunmasının təmin edilməsi;

4.1.4. mallarda və onların ehtiyat hissələrində olan müxtəlifliyin aradan qaldırılmasını və onların qarşılıqlı əvəz olunmasını təmin etməklə resurslara qənaət olunması və mallara çəkilən istehsal xərclərinin azaldılması;

4.1.5. istehlakçıların mallara (xidmətə, işə) dair tələb və gözləntilərinin müvafiq mallarda öz əksini tapmasına, eləcə də istehlakçılarda malların (işlərin, xidmətlərin) keyfiyyətinə dair etibarın formalaşdırılmasına və malın (xidmətin, işin) keyfiyyəti haqqında dəqiq informasiya əldə etməsinə dəstək göstərilməsi, malın (xidmətin, işin) təhlükəsizliyinə və keyfiyyətinə dair istehlakçılara yanlış məlumatların verilməsinin qarşısının alınması;

4.1.6. dövlət standartlarının beynəlxalq standartlara uyğunlaşdırılması və regional və beynəlxalq standartlaşdırmada milli iqtisadiyyatın maraqlarının nəzərə alınması;

4.1.7. innovasiyaların səmərəli tətbiqinin və yüksək texnologiyalı malların istehsalının dəstəklənməsi;

4.1.8. təbii ehtiyatlardan və enerji resurslarından səmərəli istifadənin təmin edilməsi;

4.1.9. satınalmalar zamanı dövlətin maraqlarının qorunması.

4.2. Standartlaşdırmanın prinsipləri aşağıdakılardır:

4.2.1. bütün maraqlı tərəflərin standartlaşdırma prosesində bərabər şərtlər əsasında könüllü iştirakı;

4.2.2. standartlaşdırma üzrə normativ sənədlərin maraqlı tərəflərin konsensusu əsasında hazırlanması və qəbul edilməsi;

4.2.3. standartlaşdırmanın şəffaflığı;

4.2.4. dövlət standartlarının hazırlanmasında beynəlxalq və regional standartlardan istifadə edilməsi və onların həmin standartlara uyğunlaşdırılması;

4.2.5. standartlaşdırma üzrə normativ sənədlərin hazırlanmasında elm və texnikanın nailiyyətlərinin, bilik, qabaqcıl təcrübə və texnologiyaların tətbiqi;

4.2.6. standartlaşdırma üzrə normativ sənədlərin bir-birinə ziddiyyət təşkil etməməsi;

4.2.7. standartlaşdırmanın sistemliliyinin və kompleksliliyinin təmin edilməsi;

4.2.8. insanların həyat və ya sağlamlığına, ətraf mühitə, əmlaka və dövlətin maraqlarına zərər vuracaq standartlaşdırma üzrə normativ sənədlərin hazırlanmasının qarşısının alınması;

4.2.9. istehlakçıların gözləntilərinin və bazarın tələblərinin nəzərə alınması;

4.2.10. istehsalçıların və istehlakçıların ehtiyaclarının ödənilməsi;

4.2.11. şəxsi maraqların ümumi maraqlardan üstün tutulmasının qarşısının alınması;

4.2.12. standartlaşdırma üzrə normativ sənədlərin Azərbaycan Respublikasının texniki reqlamentlərinə uyğunluğu;

4.2.13. standartların könüllü xarakter daşıması.

### 2-ci fəsil
### STANDARTLAŞDIRMA SAHƏSİNDƏ SƏNƏDLƏR VƏ ONLARIN TƏTBİQİ

**Maddə 5. Standartlaşdırma sahəsində normativ sənədlər**

5.1. Standartlaşdırma sahəsində normativ sənədlərə aşağıdakılar aiddir:

5.1.1. dövlət standartları, o cümlədən ilkin dövlət standartları;

5.1.2. bu Qanunla müəyyən olunmuş qaydada tətbiq edilən beynəlxalq və regional, dövlətlərarası, eləcə də xarici dövlətlərin standartları;

5.1.3. texniki şərtlər.

5.2. Standartlaşdırma sahəsində sənədlərdə nəzərdə tutulan tələblər beynəlxalq standartlara uyğun olmalı, elm, texnika və texnologiyanın müasir nailiyyətlərinə əsaslanmalı, malın (xidmətin, işin), prosesin, istehsal metodunun şərtlərini nəzərə almalı, habelə Azərbaycan Respublikasının normativ hüquqi aktlarının tələblərini pozmamalıdır.

5.3. Standartlaşdırma üzrə normativ sənədlər standartlaşdırma üzrə dövlət fonduna daxil edilir.

5.4. Standartlaşdırma sahəsində normativ sənədlərin hazırlanması, razılaşdırılması, ekspertizası, qəbul edilməsi, dövlət reyestrinə və fonduna daxil edilməsi, dəyişikliklər edilməsi və nəşri qaydaları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyənləşdirilir.

**Maddə 6. Standartlaşdırma işlərinin aparılması məqsədi ilə planlaşdırma**

6.1. Dövlət standartlarının hazırlanması işlərinin planlaşdırılması Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafının əsas istiqamətlərinə uyğun olmalı, müasir elmi araşdırmaların nəticələrini nəzərə almalı və Azərbaycan Respublikasının normativ hüquqi aktlarının tələblərinə cavab verməlidir.

6.2. Dövlət standartlarının hazırlanması işlərinin planlaşdırılması milli standartlaşdırma qurumu tərəfindən formalaşdırılan, təsdiq edilən və nəşr edilən 3 illik milli standartlaşdırma proqramı əsasında həyata keçirilir. Proqramda dövlət standartlarının müəyyənləşdirilməsi, qəbul edilməsi, onların siyahısının dərc edilməsi və müntəzəm olaraq yenilənməsi üçün milli standartlaşdırma qurumu, müvafiq sahədə dövlət orqanları (qurumları) və standartlaşdırma üzrə texniki komitələr tərəfindən görüləcək tədbirlər əks olunur.

6.3. Standartlaşdırma üzrə milli proqram standartlaşdırma ilə əlaqəli olan texniki reqlamentlərin və digər normativ hüquqi aktların tələbləri, standartlaşdırma üzrə texniki komitələrin iş planları nəzərə alınmaqla hazırlanır.

6.4 Standartlaşdırma üzrə milli proqram beynəlxalq, regional, dövlətlərarası standartların hazırlanmasına şamil olunmur.

6.5. Standartlaşdırma üzrə milli proqrama aşağıdakılar daxildir:

6.5.1. standartların beynəlxalq təsnifat kodu;

6.5.2. standartların layihələrinin adları;

6.5.3. işlənmənin hazırlanması üçün əsas;

6.5.4. əsas normativ baza;

6.5.5. işin icra müddəti;

6.5.6. maliyyə mənbəyi;

6.5.7. təklif verən sifarişçi təşkilatın adı;

6.5.8. xarici iqtisadi fəaliyyətin mal nomenklaturası.

6.6. Milli standartlaşdırma proqramının formalaşdırılması və onda dəyişikliklərin edilməsi qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

6.7. Standartlaşdırma üzrə milli proqram milli standartlaşdırma qurumunun internet saytında dərc edilir.

6.8. Milli standartlaşdırma qurumu altı ayda bir dəfədən az olmayaraq milli standartlaşdırma proqramı üzrə görülmüş işlər barədə məlumatları öz internet saytında yerləşdirməlidir.

**Maddə 7. Dövlət standartları**

7.1. Azərbaycan Respublikasının dövlət standartları bu Qanunda nəzərdə tutulan məqsədlər üçün işlənilib hazırlanır və Azərbaycan Respublikasının qanunvericiliyinin tələblərinə uyğun olmalıdır.

7.2. Dövlət standartları "AZS" nişanı ilə nişanlanır.

7.3. Azərbaycan Respublikasının dövlət standartlarında aşağıdakılar müəyyən edilə bilər:

7.3.1. texniki reqlamentlərlə müəyyən edilmiş tələblərə əməl edilməsini təmin etmək məqsədi ilə standartlaşdırma obyektləri üzrə zəruri tələblər;

7.3.2. malın (xidmətin, işin), onunla əlaqəli prosesin (o cümlədən idarəetmə sisteminin), istehsal metodunun təsnifatlaşdırılmasına dair tələblər;

7.3.3. malın unifikasiya, uyğunluq və qarşılıqlı əvəzolunma göstəriciləri;

7.3.4. termin və təriflər;

7.3.5. istehlak xassələri və malın (xidmətin, işin), onunla əlaqəli prosesin (o cümlədən idarəetmə sisteminin), istehsal metodunun keyfiyyət səviyyəsini müəyyən edən funksional təyinatlı göstəriciləri (xarakteristikaları da daxil olmaqla);

7.3.6. qəbul, qablaşdırılma, markalanma, daşınma, saxlanma, utilizasiya və məhvetmə qaydaları;

7.3.7. sınaq üsulları və qaydaları;

7.3.8. bütün növ resursların qənaət olunmasına və resurslardan səmərəli istifadə edilməsinə dair tələblər;

7.3.9. idarəetmə sistemləri və onların tətbiqinə dair tələblər;

7.3.10. müəyyən fəaliyyət sahəsi üzrə təşkilati-metodiki xarakterli müddəalar, eləcə də ümumi texniki norma və qaydalar.

7.4. Azərbaycan Respublikasının dövlət standartları qanunvericiliyin tələbləri, beynəlxalq, dövlətlərarası və regional standartlar və standartlaşdırma obyektlərinə olan tələbləri müəyyənləşdirən digər normativ sənədlər, elmi tədqiqatların (sınaqların) və ölçmələrin nəticələri nəzərə alınmaqla hazırlanmalıdır. Dövlət standartları lüzumsuz maneələr yaratmaq məqsədi ilə hazırlanmamalı, qəbul və ya tətbiq olunmamalıdır.

7.5. Dövlət standartı Azərbaycan Respublikasının ərazisinə idxal edilən mallara tətbiq edilən rejimin yerli və ya digər ölkə mənşəli oxşar mallara tətbiq edilən rejimlə eyniliyini təmin edən formada hazırlanmalı, qəbul və tətbiq edilməlidir.

7.6. Standartlaşdırma fəaliyyətinin məqsədlərinə nail olmaq üçün əsaslı iqlim, coğrafi və ya texnoloji amillər səbəbindən uyğun gəlmədiyi hallarda, müvafiq beynəlxalq, dövlətlərarası və regional standartlar və ya onların müvafiq hissələri dövlət standartının hazırlanması üçün texniki komitələr tərəfindən təhlil və istifadə mənbəyi kimi götürülməyə bilər.

7.7. Dövlət standartları standartlaşdırma üzrə milli proqrama və ya təşəbbüs qaydasına müvafiq olaraq işlənilib hazırlanır.

7.8. Dövlət standartının ilkin layihəsini dövlət orqanları (qurumları), hüquqi və ya fiziki şəxslər hazırlaya və müvafiq texniki komitəyə təqdim edə bilər. Dövlət standartının layihəsini hazırlayan subyektlər onun qəbul edilməsinin zəruriliyini əsaslandırmalıdırlar.

7.9. Dövlət standartlarının işlənilib hazırlanması prosedurları standartlaşdırma üzrə texniki komitələr vasitəsilə həyata keçirilir.

7.10. Dövlət standartlarının işlənilib hazırlanması prosesinə başlanılması və yekunlaşdırılması haqqında bildirişlər, həmçinin dövlət standartlarının layihələri milli standartlaşdırma qurumunun rəsmi internet saytında yerləşdirilməlidir.

7.11. Milli standartlaşdırma qurumunun rəsmi internet saytında dövlət standartlarının layihələrinin ictimai müzakirəsi 60 təqvim günü ərzində aparılır. Müvafiq texniki komitəyə daxil olan rəylərə ən geci 1 (bir) ay müddətində baxılmalı və rəylər nəzərə alınmadıqda, rəy müəllifinə bu barədə əsaslandırılmış məlumat verilməlidir.

7.12. Texniki komitədə dövlət standartları konsensus əsasında qəbul olunmalıdır.

7.13. Bütün maraqlı tərəflərin layihə üzrə razılığı əldə edildikdən və nəzərə alınmamış rəylərlə əlaqədar rəy müəlliflərinə məlumat verildikdən sonra müvafiq texniki komitə dövlət standartını qəbul edilməsi üçün milli standartlaşdırma qurumuna təqdim etməlidir.

7.14. Milli standartlaşdırma qurumu bu Qanunun tələblərinə uyğunluğu baxımından layihənin ekspertizasını aparır və bu Qanunun tələblərinə uyğun olduğu halda hazırlanmış dövlət standartını qəbul edir və dövlət reyestrinə daxil edir. Dövlət reyestrinə daxil edilmiş dövlət standartı, eyni zamanda, standartlaşdırma üzrə dövlət fonduna daxil edilir. Dövlət standartının qüvvəyə minmə tarixi dövlət standartında göstərilir.

7.15. Qəbul edilmiş dövlət standartları rəsmi nəşr edilir.

7.16. Aşağıdakı hallarda dövlət standartlarının qüvvədən düşməsi barədə milli standartlaşdırma qurumu tərəfindən qərar qəbul edilir:

7.16.1. eyni məsələ ilə bağlı yeni dövlət standartının qəbulu və qüvvəyə minməsi;

7.16.2. qüvvəyə minən texniki reqlamentlərin tələblərinə zidd olması;

7.16.3. aparılmış yoxlamanın nəticələrinə əsasən.

**Maddə 8. İlkin dövlət standartları**

8.1. İlkin dövlət standartları innovasiyalı yeni mal (iş, xidmət), onunla əlaqəli proses (o cümlədən idarəetmə sistemi), istehsal metodu üçün hazırlanır.

8.2. İlkin dövlət standartlarında göstərilən tələblər texniki reqlamentlərin və standartların tələblərinə zidd olmamalıdır.

8.3. İlkin dövlət standartları elmi tədqiqatların (sınaqların) və ölçmələrin nəticələri və innovasiyalı yeni növ malın (işin, xidmətin), onunla əlaqəli prosesin (o cümlədən idarəetmə sisteminin), istehsal metodunun tətbiqi ilə əldə edilən praktik təcrübələrin əsasında hazırlanır.

8.4. İlkin dövlət standartlarının işlənilib hazırlanması standartlaşdırma sisteminin subyektlərinin təşəbbüsü ilə həyata keçirilir.

8.5. İlkin dövlət standartlarını dövlət orqanları (qurumları), hüquqi və ya fiziki şəxslər hazırlaya və aidiyyəti texniki komitəyə göndərə bilərlər. İlkin dövlət standartı layihəsini hazırlayan subyektlər onun qəbul edilməsinin zəruriliyini əsaslandırmalıdırlar.

8.6. İlkin dövlət standartlarının layihələrinin qəbul edilməsi üçün baxılması sahə üzrə texniki komitələrin çərçivəsində həyata keçirilir.

8.7. İlkin dövlət standartları ekspertizadan keçirilərək, bu Qanunun tələblərinə cavab verdiyi halda milli standartlaşdırma qurumu tərəfindən qəbul edilir və dövlət reyestrinə daxil edilir. Dövlət reyestrinə daxil edilmiş ilkin dövlət standartı, eyni zamanda, standartlaşdırma üzrə dövlət fonduna daxil edilir.

8.8. İlkin dövlət standartları 2 (iki) il müddətinədək qəbul olunur və qüvvədəndüşmə müddətinə ən azı 3 (üç) ay qalmış aidiyyəti standartlaşdırma üzrə texniki komitə onun dövlət standartı kimi qəbulu məqsədi ilə yoxlanılmasını və onun tətbiqinin qiymətləndirilməsini təşkil edir.

8.9. İlkin dövlət standartının dövlət standartı kimi qəbul olunması, vaxtının uzadılması və ya qüvvədən düşməsi haqqında təklif standartlaşdırma üzrə texniki komitənin iclasında konsensus əsasında qəbul olunur və qərarın qəbul olunması üçün milli standartlaşdırma qurumuna təqdim edilir.

**Maddə 9. Texniki şərtlər**

9.1. Texniki şərtlər müvafiq sahədə dövlət standartı və ya Azərbaycan Respublikasında birbaşa tətbiq olunan beynəlxalq, regional, dövlətlərarası və xarici dövlət standartları olmadığı təqdirdə və ya təsərrüfat subyekti tərəfindən müəyyən edilmiş yeni texniki həllərin istifadəsini təmin etmək məqsədilə təsərrüfat subyektləri tərəfindən işlənib hazırlanır. Texniki şərtlərdən üçüncü şəxslərin istifadəsi üçün texniki şərtlərin sahiblərinin razılığı olmalıdır. Texniki şərtlərin sahiblərinin razılığını bildirən müvafiq müqavilə texniki şərtlərin sahibləri tərəfindən milli standartlaşdırma qurumuna qeydiyyat üçün təqdim edilir.

9.2. Təsərrüfat subyektləri texniki şərtləri hər hansı mala (işə, xidmətə), onunla əlaqəli prosesə (o cümlədən idarəetmə sisteminə), istehsal metoduna dair hazırlaya və qəbul edə bilərlər.

9.3. Təsərrüfat subyekti hazırladığı texniki şərtin tələblərinə əməl etməli və istehsal etdiyi malın (işin, xidmətin), onunla əlaqəli prosesin (o cümlədən idarəetmə sisteminin), istehsal metodunun texniki şərtin tələblərinə uyğunluğunu təmin etməlidir. Texniki şərtlərin müddəaları bu Qanunun və müvafiq sahədə mövcud olan texniki reqlamentlərin tələblərinə uyğun olmalıdır.

9.4. Texniki şərtlər qəbul edildiyi tarixdən 1 (bir) ay müddətində milli standartlaşdırma qurumuna göndərilir. Milli standartlaşdırma qurumu texniki şərt daxil olduğu gündən 15 (on beş) gün müddətində onun bu Qanunun və müvafiq sahədə mövcud olan texniki reqlamentlərin tələblərinə uyğun olmaması barədə rəyi təsərrüfat subyektinə təqdim etmədikdə, həmin texniki şərt təsərrüfat subyekti tərəfindən istifadə edilə bilər.

9.5. Bu Qanunun və müvafiq sahədə mövcud olan texniki reqlamentlərin tələbləri ilə ziddiyyət təşkil etməyən texniki şərtlər standartlaşdırma üzrə dövlət fonduna daxil edilir.

**Maddə 10. Standartlaşdırma üzrə normativ sənədlərin dövlət reyestri və nəşri**

10.1. Standartlaşdırma üzrə normativ sənədlərin dövlət reyestri standartlaşdırma üzrə normativ sənədlərə identifikasiya məqsədi ilə qeydiyyat nömrələrinin verilməsidir.

10.2. Milli standartlaşdırma qurumu standartlaşdırma üzrə normativ sənədləri (texniki şərtlər istisna olmaqla) dövlət reyestrinə daxil edir və standartlaşdırma üzrə normativ sənədlər haqqında məlumatı özünün rəsmi internet saytında yerləşdirir.

10.3. Qəbul olunmuş standartlaşdırma üzrə normativ sənədlər haqqında məlumatlar milli standartlaşdırma qurumu tərəfindən rəsmi nəşr olunaraq, standartlaşdırma üzrə dövlət fonduna daxil edilir.

**Maddə 11. Standartlaşdırma sahəsində normativ sənədlərin yoxlanılması**

11.1. Milli standartlaşdırma qurumu, səlahiyyətinə standartlaşdırma obyektləri daxil olan dövlət orqanları (qurumları) və standartlaşdırma üzrə texniki komitələr hər il standartlaşdırma üzrə normativ sənədlərin yoxlanılmasını həyata keçirməlidirlər.

11.2. Standartlaşdırma sahəsində normativ sənədlərin yoxlanılmasına aşağıdakılar daxildir:

11.2.1. standartlaşdırma üzrə normativ sənədlərin elmi-texniki səviyyəsinin təhlili;

11.2.2. standartlaşdırma üzrə normativ sənədlərin qüvvədə olan texniki reqlamentlərə uyğunluğunun təhlili;

11.2.3. iqtisadiyyatın müxtəlif sahələrinin standartlaşdırma üzrə normativ sənədlərlə təmin olunmasının təhlili;

11.2.4. bu Qanunla müəyyən olunmuş standartlaşdırmanın məqsədləri baxımından standartlaşdırma üzrə normativ sənəddə dəyişikliklər edilməsi, ləğv edilməsi və ya yeni standartlaşdırma üzrə normativ sənədin qəbulu zərurətinin müəyyən edilməsi.

11.3. Standartlaşdırma sahəsində normativ sənədlərin yoxlanılması nəticələri ilə əlaqədar əsaslandırılmış təkliflər müvafiq tədbirlər görülməsi üçün milli standartlaşdırma qurumuna göndərilir. Təkliflər əsaslı hesab edildiyi halda, milli standartlaşdırma qurumu standartlaşdırma üzrə normativ sənəddə dəyişikliklər edilməsi, ləğv edilməsi və ya yeni standartlaşdırma üzrə normativ sənədin qəbulu üçün müvafiq tədbirlər görür.

11.4. Standartlaşdırma sahəsində normativ sənədlərin yoxlanılması qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyənləşdirilir.

**Maddə 12. Standartlaşdırma üzrə normativ sənədlərin tətbiqi**

12.1. Standartlaşdırma üzrə normativ sənədlər malın (xidmətin, işin), onunla əlaqəli prosesin (o cümlədən idarəetmə sisteminin), istehsal metodlarının standartlaşdırma üzrə normativ sənədlərin tələblərinə uyğunluğunun qiymətləndirilməsi, tədarük olunan (göndərilən) mallara (xidmətə, işə) və proseslərə texniki sənədlərin (konstruktor, texnoloji layihə) və kataloq vərəqələrinin işlənilib hazırlanması zamanı könüllü şəkildə tətbiq olunur.

12.2. Malın (işin, xidmətin), onunla əlaqəli prosesin (o cümlədən idarəetmə sisteminin), istehsal metodlarının müvafiq standartlaşdırma üzrə normativ sənədlərin tələblərinə uyğunluğunun təsdiq edilməsi prosesindən əvvəl milli standartlaşdırma qurumundan standartlaşdırma üzrə normativ sənədlərin rəsmi nəşrlərinin əldə olunması və onların tələblərinə riayət olunması məcburi hesab olunur.

12.3. Qanunvericilik aktlarında birbaşa istinadlar yalnız ölkə ərazisində qüvvədə olan dövlət dilində dərc edilmiş standartlaşdırma üzrə normativ sənədlərə verilə bilər.

**Maddə 13. Uyğunluğun könüllü qiymətləndirilməsi**

13.1. Uyğunluğun könüllü qiymətləndirilməsi üçün mal (iş, xidmət), onunla əlaqəli proses (o cümlədən idarəetmə sistemi), istehsal metodu, ilk növbədə, texniki reqlamentlərin tələblərinə uyğun olmalıdır. Texniki reqlamentlərin tələblərinə cavab verən və ya texniki reqlamentlərlə tənzimlənməyən malın (işin, xidmətin), onunla əlaqəli prosesin (o cümlədən idarəetmə sisteminin), istehsal metodunun standartlaşdırma üzrə normativ sənədlərin tələblərinə uyğunluğunun qiymətləndirilməsi sertifikatlaşdırma yolu ilə həyata keçirilir. Sertifikatlaşdırma sifarişçinin təşəbbüsü ilə akkreditasiya edilmiş uyğunluğu qiymətləndirən qurumlar tərəfindən təmin edilir və bu barədə uyğunluq sertifikatı verilir.

13.2. Uyğunluğun könüllü qiymətləndirilməsi uyğunluğu qiymətləndirən qurumlar tərəfindən akkreditasiya tələblərinə, milli standartlaşdırma qurumu tərəfindən qəbul edilmiş normativ sənədlərə və müvafiq beynəlxalq standartların tələblərinə əsasən aparılır.

*Ardı 3-cü səh.*

# Standartlaşdırma haqqında

## Azərbaycan Respublikasının Qanunu

*Əvvəli 2-ci səh.*

13.3. Uyğunluq sertifikatının forması, uyğunluq nişanından istifadə və verilməsi qaydaları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

13.4. Uyğunluğun qiymətləndirilməsi təmin edildikdən sonra təsərrüfat subyektləri standartlaşdırma üzrə müvafiq normativ sənədlərin tələblərinə riayət etmədikləri təqdirdə, bu istehlakçıların aldadılması halı kimi qiymətləndirilir və həmin təsərrüfat subyektləri qanunla müəyyən edilmiş məsuliyyətə cəlb olunurlar.

13.5. Malın (işin, xidmətin), onunla əlaqəli prosesin (o cümlədən idarəetmə sisteminin), istehsal metodunun standartlaşdırma üzrə müvafiq normativ sənədlərin tələblərinə uyğunluğunun təmin edilməsi məqsədilə akkreditasiya olunmuş uyğunluğu qiymətləndirən qurumlar tərəfindən təsərrüfat subyektləri ilə uyğunluq sertifikatının əldə olunması zamanı əvvəlcədən razılaşdırılmış şərtlərə uyğun olaraq monitorinqlər aparılmalıdır. Malın (işin, xidmətin), onunla əlaqəli prosesin (o cümlədən idarəetmə sisteminin), istehsal metodunun standartlaşdırma üzrə normativ sənədlərin tələblərinə uyğun olmadığı müəyyən edildiyi halda, uyğunluq sertifikatının qüvvəsinin dayandırılması barədə qərar qəbul edilir və bazara buraxılmış malların dərhal geri qaytarılması şərti ilə 1 (bir) ay müddətində akkreditasiya olunmuş uyğunluğu qiymətləndirən qurumlar tərəfindən aşkar edilmiş nöqsanların aradan qaldırılması təsərrüfat subyektlərindən tələb olunmalıdır. Qeyd olunan tələblərə riayət olunmadığı halda akkreditasiya olunmuş uyğunluğu qiymətləndirən qurumlar tərəfindən uyğunluq sertifikatının ləğvi barədə qərar qəbul edilir.

**Maddə 14. Standartlaşdırma üzrə dövlət fondu və onun idarə olunması**

14.1. Milli standartlaşdırma qurumu ilkin dövlət standartlarını, dövlət standartlarını, texniki şərtləri, standartlaşdırma üzrə beynəlxalq, regional, dövlətlərarası, xarici dövlətlərin standartlarını, dövlətlərarası müqavilələri, habelə onların tətbiqi qaydalarını mütəmadi olaraq standartlaşdırma üzrə dövlət fonduna daxil edir.

14.2. Standartlaşdırma üzrə dövlət fondunun formalaşdırılması və idarə edilməsi milli standartlaşdırma qurumu tərəfindən həyata keçirilir.

14.3. Milli standartlaşdırma qurumu standartlaşdırma üzrə dövlət fondunun informasiya sisteminin mütəmadi qaydada genişləndirilməsi və fondda olan sənədlərin aktuallaşdırılması, mühafizə edilməsi üçün tədbirlər görməlidir.

14.4. Standartlaşdırma üzrə normativ sənədlərin rəsmi nəşrlərinin yayımı standartlaşdırma üzrə dövlət fondunun məlumat bazası əsasında həyata keçirilir.

14.5. Standartlaşdırma üzrə dövlət fondunun təşkili, saxlanması, aktuallaşdırılması və mühafizəsi qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

14.6. Standartlaşdırma üzrə sənədlərin tətbiqi və yayımı müəlliflik hüquqlarına əməl edilməklə həyata keçirilir. Rəsmi nəşrlərə müəlliflik hüququ milli standartlaşdırma qurumuna məxsusdur. Uyğunluğun qiymətləndirilməsi zamanı fiziki və hüquqi şəxslər rəsmi nəşrlərin (texniki şərtlər istisna olmaqla) onlara məxsusluğunu (standartlaşdırma üzrə sənədlərin milli standartlaşdırma qurumundan alınmasını) təsdiq etməlidirlər.

14.7. Qəbul edilmiş, dövlət reyestrinə daxil edilmiş dövlət standartları, onların qüvvədəolma müddəti barədə informasiya, dövlət sirrini özündə saxlayan məlumat istisna olmaqla, milli standartlaşdırma qurumunun rəsmi nəşrlərində dərc olunur.

14.8. Dövlət fondundan standartlaşdırma üzrə normativ sənədlər milli standartlaşdırma qurumu ilə bağlanılmış müqavilələr əsasında kağız və ya milli standartlaşdırma qurumunun rəsmi internet səhifəsindən onlayn formada əldə edilir.

**3-cü fəsil**
**STANDARTLAŞDIRMANIN SUBYEKTLƏRİ VƏ ONLARA TƏLƏBLƏR**

**Maddə 15. Standartlaşdırmanın subyektləri**

15.0. Standartlaşdırmanın subyektləri aşağıdakılardır:

15.0.1. milli standartlaşdırma qurumu;

15.0.2. standartlaşdırma üzrə texniki komitələr;

15.0.3. standartlaşdırma fəaliyyəti ilə məşğul olan digər subyektlər (dövlət orqanları (qurumları), hüquqi və fiziki şəxslər).

**Maddə 16. Texniki komitələr**

16.1. Standartlaşdırma üzrə texniki komitələr dövlət, beynəlxalq, regional, dövlətlərarası standartların hazırlanmasında maraqlı tərəflərin iştirakını təmin etmək məqsədi ilə təsis edilir.

16.2. Texniki komitələr hüquqi şəxs deyil və könüllülük, tərəflərin bərabər iştirakı, bu Qanunun 4-cü maddəsi ilə müəyyənləşdirilmiş standartlaşdırmanın məqsədləri və prinsiplərinə riayət olunması, komitə haqqında məlumatın açıqlığı və əlçatanlığı prinsipləri əsasında formalaşdırılır.

16.3. Texniki komitələr dövlət orqanlarının (qurumlarının), fiziki və hüquqi şəxslərin təşəbbüsü və müvafiq müraciəti əsasında milli standartlaşdırma qurumu tərəfindən təsis edilir, qeydiyyata alınır və fəaliyyətləri əlaqələndirilir.

16.4. Maraqlı tərəflərin texniki komitələrə cəlb edilməsi həmin komitələrin yaradılması təşəbbüsü ilə çıxış edən dövlət orqanlarının (qurumlarının), fiziki və hüquqi şəxslərin və ya həmin maraqlı tərəflərin təşəbbüsü əsasında həyata keçirilir. Texniki komitənin tərkibinə müvafiq sahədə dövlət orqanlarının (qurumlarının), elm və təhsil müəssisələrinin, istehsalçı müəssisələrin, ictimai birliklərin, istehlakçıların nümayəndələri, standartlaşdırma üzrə texniki ekspertlər daxil edilə bilər.

16.5. Texniki komitələrin fəaliyyəti müvafiq maraqlı tərəflərin ödədikləri üzvlük haqları və qanunla qadağan edilməyən mənbələr hesabına maliyyələşdirilir. Dövlət orqanları (qurumları) formalaşdırdıqları texniki komitələrin analitik-informasiya və təşkilati təminatı üçün tədbirlər görməlidirlər.

16.6. Texniki komitənin formalaşdırılması ilə bağlı məlumat ictimaiyyətə açıq olmalıdır.

16.7. Standartlaşdırma üzrə texniki komitələrin yaradılması və fəaliyyətinin təşkili qaydaları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

16.8. Standartlaşdırma üzrə texniki komitələr dövlət standartlarının vaxtında işlənilib hazırlanmasını təmin etməlidirlər.

**4-cü fəsil**
**STANDARTLAŞDIRMA ÜZRƏ İŞLƏRİN MALİYYƏLƏŞDİRİLMƏSİ**

**Maddə 17. Standartlaşdırma üzrə işlərin maliyyə mənbəyi**

17.1. Azərbaycan Respublikasında standartlaşdırma üzrə işlərin maliyyələşdirilməsi mənbələri aşağıdakılardır:

17.1.1. milli standartlaşdırma qurumunun qəbul etdiyi standartlaşdırma üzrə normativ sənədlərin və digər nəşr materiallarının rəsmi yayımından (təqdim edilməsi və satışından) əldə edilən vəsait;

17.1.2. beynəlxalq, regional, dövlətlərarası və xarici dövlətlərin standartlarının rəsmi yayımından əldə edilən vəsait;

17.1.3. texniki komitələrdə iştirak üçün maraqlı tərəflərin üzvlük haqqı ödənişlərindən əldə edilən vəsait;

17.1.4. ictimai, özəl və beynəlxalq təşkilatların yardımları;

17.1.5. milli standartlaşdırma qurumunun bu Qanunla müəyyən olunan digər fəaliyyəti ilə bağlı əldə olunan vəsait.

17.2. Standartlaşdırma üzrə aşağıdakı fəaliyyətlər dövlət büdcəsindən maliyyələşdirilir:

17.2.1. beynəlxalq və regional standartlaşdırma təşkilatlarında üzvlük haqqı;

17.2.2. Azərbaycan Respublikasında təsis edilən texniki komitələr tərəfindən beynəlxalq, dövlətlərarası və regional standartların layihələrinin hazırlanması və onların ekspertizalarının aparılması ilə bağlı görülmüş işlərə dair xərclər;

17.2.3. Azərbaycan Respublikasının texniki reqlamentlərində istinad edilməsi nəzərdə tutulan standartların hazırlanması ilə əlaqədar xərclər;

17.2.4. Azərbaycan Respublikasında təsis edilən texniki komitələr tərəfindən dövlət standartlarının hazırlanması ilə əlaqədar xərclər (bu xərclər digər mənbələr hesabına ödənilmədikdə).

17.3. Standartlaşdırma sahəsində normativ sənədlərin (texniki şərtlər istisna olmaqla) satış qiymətləri barədə məlumat milli standartlaşdırma qurumunun rəsmi internet səhifəsində göstərilir. Beynəlxalq, regional, dövlətlərarası və xarici dövlətlərin standartlarının satış qiymətləri müvafiq beynəlxalq müqavilələrə (sazişlərə) uyğun olaraq müəyyən edilir.

**5-ci fəsil**
**YEKUN MÜDDƏALARI**

**Maddə 18. Beynəlxalq, regional, dövlətlərarası və xarici dövlətlərin standartları, onların qəbulu və tətbiqi qaydaları**

18.1. Beynəlxalq, regional, dövlətlərarası və xarici dövlətlərin standartları milli standartlaşdırma qurumunun qərarı ilə dövlət standartı kimi qəbul edilərək Azərbaycan Respublikasının ərazisində birbaşa tətbiq edilə bilər.

18.2. Beynəlxalq, regional, dövlətlərarası və xarici dövlətlərin standartlarının Azərbaycan Respublikasının ərazisində tətbiqi qaydaları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən olunur.

18.3. Müəlliflik hüquqları obyekti olan beynəlxalq, regional, dövlətlərarası və xarici dövlətlərin standartlarının tətbiqi zamanı müəlliflik hüquqları qorunmalıdır.

**Maddə 19. Qanunun qüvvəyə minməsi ilə əlaqədar tədbirlər**

Texniki tənzimləmənin şamil olunduğu malın (işin, xidmətin), onunla əlaqəli prosesin (o cümlədən idarəetmə sisteminin), istehsal metodunun əhatə dairəsi müəyyən edilənədək və həmin mala (işə, xidmətə), prosesə (o cümlədən idarəetmə sisteminə), istehsal metoduna dair müvafiq texniki reqlamentlər qüvvəyə minənədək mövcud standartlara dair normativ hüquqi aktlar öz hüquqi qüvvəsini saxlayırlar və təsərrüfat subyektləri tərəfindən həmin standartların və normativ hüquqi aktların tələblərinə riayət olunmalıdır.

**Maddə 20. Qanunun pozulmasına görə məsuliyyət**

Bu Qanunun tələblərini pozan şəxslər Azərbaycan Respublikasının Mülki Məcəlləsinə, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə və Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə uyğun olaraq məsuliyyət daşıyırlar.

**Maddə 21. Yekun müddəalar**

21.1. Bu Qanunun qüvvəyə mindiyi gündən "Standartlaşdırma haqqında" Azərbaycan Respublikasının 1996-cı il 16 aprel tarixli 60-IQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 2, maddə 92; 2001, № 11, maddə 683; 2004, № 2, maddə 57, № 10, maddə 761; 2007, № 10, maddə 938; 2009, № 12, maddə 948; 2014, № 10, maddə 1166; 2017, № 6, maddə 1025; 2018, № 4, maddə 643, № 11, maddə 2189) ləğv edilir.

21.2. Bu Qanun dərc edildiyi gündən 90 gün sonra qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 may 2019-cu il*

# "Standartlaşdırma haqqında" Azərbaycan Respublikasının 2019-cu il 17 may tarixli 1587-VQ nömrəli Qanununun tətbiqi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Standartlaşdırma haqqında" Azərbaycan Respublikasının 2019-cu il 17 may tarixli 1587-VQ nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. beş ay müddətində:

1.1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Standartlaşdırma haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.1.3. həmin Qanunun 5.4-cü maddəsinə uyğun olaraq, standartlaşdırma sahəsində normativ sənədlərin hazırlanması, razılaşdırılması, ekspertizası, qəbul edilməsi, dövlət reyestrinə və fonduna daxil edilməsi, dəyişiklik edilməsi və nəşri qaydalarını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

1.1.4. həmin Qanunun 6.6-cı maddəsinə uyğun olaraq, milli standartlaşdırma proqramının formalaşdırılması və onda dəyişiklik edilməsi qaydasını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

1.1.5. həmin Qanunun 11.4-cü maddəsinə uyğun olaraq, standartlaşdırma sahəsində normativ sənədlərin yoxlanılması qaydasını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

1.1.6. həmin Qanunun 13.3-cü maddəsinə uyğun olaraq, uyğunluq sertifikatının formasını, uyğunluq nişanından istifadə və verilməsi qaydalarını təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.1.7. həmin Qanunun 14.5-ci maddəsinə uyğun olaraq, standartlaşdırma üzrə dövlət fondunun təşkili, saxlanması, aktuallaşdırılması və mühafizəsi qaydasını təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.1.8. həmin Qanunun 16.7-ci maddəsinə uyğun olaraq, standartlaşdırma üzrə texniki komitələrin yaradılması və fəaliyyətinin təşkili qaydalarını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

1.1.9. həmin Qanunun 18.2-ci maddəsinə uyğun olaraq, beynəlxalq, regional, dövlətlərarası və xarici dövlətlərin standartlarının Azərbaycan Respublikasının ərazisində tətbiqi qaydalarını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

1.1.10. həmin Qanunun pozulmasına görə məsuliyyət növlərini müəyyən edən qanun layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə altı ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Müəyyən edilsin ki:

2.1. "Standartlaşdırma haqqında" Azərbaycan Respublikası Qanununun 1.0.18-ci, 5.4-cü, 6.6-cı, 11.4-cü, 13.3-cü, 14.5-ci, 16.7-ci və 18.2-ci maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

2.2. həmin Qanunun 5.4-cü, 6.6-cı, 11.4-cü, 13.3-cü, 14.5-ci, 16.7-ci və 18.2-ci maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

2.3. həmin Qanunun 1.0.18-ci maddəsində "orqan (qurum)" dedikdə "Azərbaycan Standartlaşdırma İnstitutu" publik hüquqi şəxs nəzərdə tutulur.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Standartlaşdırma haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

4. "Standartlaşdırma haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı:

4.1. qəbul ediləcək Azərbaycan Respublikası Prezidentinin aktları, Azərbaycan Respublikası Nazirlər Kabinetinin və mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktları həmin Qanunun qüvvəyə mindiyi tarixdən tez qüvvəyə minməsin;

4.2. qanunların və normativ xarakterli aktların layihələri hazırlanarkən həmin Qanunun qüvvəyəminmə tarixi nəzərə alınsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 iyul 2019-cu il*

# Türkiyə parlamentində 15 İyul - Demokratiya və Milli Birlik Günü ilə əlaqədar xüsusi iclas keçirilib

Türkiyə Böyük Millət Məclisində 15 İyul - Demokratiya və Milli Birlik Günü ilə əlaqədar xüsusi iclas keçirilib.

AZƏRTAC xəbər verir ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə keçirilən iclasda Azərbaycanı Milli Məclis Sədrinin birinci müavini, Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov və deputat Dilarə Cəbrayılovadan ibarət parlament heyəti təmsil edib.

Əvvəlcə Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şentopun çıxışı dinlənilib. FETÖ terror təşkilatının hərbi yolla həyata keçirdiyi çevriliş cəhdini xalqa və dövlətə qarşı xəyanət kimi dəyərləndirən TBMM-in Sədri əminliklə deyib ki, Türkiyə xalqı bundan sonra da dövlətini qorumaq və inkişaf etdirmək üçün öz həmrəyliyini saxlayacaqdır.

Sonra parlamentdə təmsil olunan siyasi partiyaların nümayəndələri 15 İyul - Demokratiya və Milli Birlik Günü ilə bağlı fikir və mülahizələrini bölüşüblər.

Azərbaycan heyəti Prezidentin Administrasiyasında keçirilən anım tədbirində, oradakı məsciddə şəhidlərə dua oxunuşunda, FETÖ-nün dövlət çevrilişinin acı nəticələrini əks etdirən Türkiyə parlamentində təşkil olunan fotoqalereyaya baxışda, həmçinin 2016-cı il iyulun 15-də dövlət çevrilişi cəhdi zamanı bombalanaraq dağıdılan Ankara Polis İdarəsinin yeni binasının açılışında iştirak edib.

Prezident Rəcəb Tayyib Ərdoğan Ankara Polis İdarəsinin yeni binasının açılışında çıxış edib.

# Azərbaycan-Türkiyə-Gürcüstan parlamentlərinin xarici əlaqələr komitələrinin üçtərəfli birgə iclası keçirilib

İyulun 15-də Milli Məclisdə Azərbaycan-Türkiyə-Gürcüstan parlamentlərinin xarici əlaqələr komitələrinin üçtərəfli birgə iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, iclasa sədrlik edən Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov bildirib ki, bu cür tədbirlər xalqlarımızın və dövlətlərimizin daha da yaxınlaşması baxımından mühüm əhəmiyyətə malikdir. Çünki dünyada getdikcə artan problemlərin öhdəsindən ancaq birlikdə gələ bilərik. Artıq ölkələrimiz beynəlxalq təşkilatlarda vahid komanda şəklində iştirak edirlər. Bu baxımdan Ankarada imzalanmış əməkdaşlıq protokolu bizim üçün yol xəritəsidir.

Səməd Seyidov diqqətə çatdırıb ki, Milli Məclisdə dünyanın 70-dən çox parlamenti ilə dostluq qrupları fəaliyyət göstərir. Türkiyə və Gürcüstanla parlament dostluq qrupu onların içərisində ən böyük qruplardandır.

Gürcüstan parlamentinin Xarici əlaqələr komitəsinin sədri xanım Sofio Katsarava bildirib ki, bu format bizim inkişafımız üçün gözəl zəmin yaradır. Belə tədbirlər regional əməkdaşlıqda parlamentlərin rolunu nəzərdən keçirmək baxımından mühüm əhəmiyyətə malikdir. Sofio Katsarava bildirib ki, bizim ölkələr Avropa və Asiya arasında körpü rolunu oynayır. Bu baxımdan Ankarada imzalanmış əməkdaşlıq protokolunda nəzərdə tutulmuş sahələrin sayının artırılması vacibdir.

Xanım deputat diqqətə çatdırıb ki, Gürcüstan Türkiyə və Azərbaycanla strateji tərəfdaşlığı davam etdirmək fikrindədir. Bunun üçün də parlament diplomatiyasının imkanlarından istifadə olunmalıdır.

Türkiyə Böyük Millət Məclisinin Xarici işlər komitəsinin sədri Volkan Bozkır bildirib ki, regionda və dünyada sabitlik üçün bu üç ölkənin münasibətləri digər ölkələrə çağırış mesajıdır. Təəssüf ki, Cənubi Qafqazdakı münaqişələr regionun inkişafına maneə törədir. Türkiyə Azərbaycanın və Gürcüstanın ərazi bütövlüyünü dəstəkləyir və bu münaqişələrin beynəlxalq hüququn prinsiplərinə uyğun həllinə inanır.

Sonra çıxış edən hər üç ölkənin deputatları Sevinc Fətəliyeva, Zviad Dzidziquri, Ahmet Yılmaz, Sahibə Qafarova, Cavanşir Feyziyev, Yunus Emre, Tahir Mirkişili və başqaları belə birgə iclasların əhəmiyyətindən danışıblar.

# Milli Məclisdə Azərbaycan və Gürcüstan deputatlarının görüşü olub

İyulun 15-də Milli Məclisdə Azərbaycan-Gürcüstan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri ölkəmizdə səfərdə olan Gürcüstan parlamentinin nümayəndə heyəti ilə görüşüblər. Nümayəndə heyətinə Gürcüstan parlamentinin Xarici əlaqələr komitəsinin sədri Sofio Katsarava başçılıq edib.

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan-Gürcüstan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Əflatun Amaşov münasibətlərimizin bütün sahələrdə yüksək səviyyədə qurulduğunu qeyd edib, dostluq və əməkdaşlıq əlaqələrimizin inkişaf etdiyini vurğulayıb.

Gürcüstan parlamentinin sədr müavini, Gürcüstan-Azərbaycan parlament dostluq qrupunun sədri Zviad Dzidziquri parlamentlərarası əlaqələrin daha intensiv xarakter daşıdığını bildirib. O, ölkələrimiz arasında əməkdaşlığın durmadan genişləndiyini vurğulayıb.

Gürcüstan parlamentinin Xarici əlaqələr komitəsinin sədri Sofio Katsarava həm beynəlxalq təşkilatlarda, həm də ikitərəfli əlaqələrdə deputatlarımızın çox səmərəli əməkdaşlıq etdiyini bildirib. O, bütün məsələlərdə Azərbaycanın dəstəyini hiss etdiklərini və bunu qiymətləndirdiklərini qeyd edib. Vurğulayıb ki, Gürcüstanla Azərbaycan bütün məsələləri dostluq və əməkdaşlıq şəraitində həll etməyə qadirdir.

Söhbət zamanı deputatlar Hikmət Babaoğlu, Rasim Musabəyov, Ramaz Nikolaişvili qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikirlərini bölüşüblər.

# Xarici İşlər Nazirliyi ADA Universiteti ilə birlikdə "Azərbaycan diplomatiyası-100 il" adlı diplomatiya həftəsi təşkil edib

Azərbaycan Respublikası diplomatik xidmət orqanlarının 100 illiyi çərçivəsində Xarici İşlər Nazirliyi ADA Universiteti ilə birlikdə "Azərbaycan diplomatiyası-100 il" adlı diplomatiya həftəsi təşkil edib.

AZƏRTAC xəbər verir ki, iyulun 15-19-da keçiriləcək diplomatiya həftəsində Azərbaycanın xarici siyasəti və nailiyyətləri ilə bağlı ölkəmizin aparıcı ali təhsil ocaqlarında təhsil alan 50-yə yaxın tələbəyə sahə üzrə daha dolğun məlumatların verilməsi məqsədilə Prezident Administrasiyasının və Xarici İşlər Nazirliyinin rəsmiləri, eləcə də diplomatik nümayəndəliklərimizin rəhbərləri tərəfindən mühazirə və seminarlar təşkil olunacaq.

Diplomatiya həftəsinin açılışında çıxış edən Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev deyib ki, 100 illik tarixə malik olan Azərbaycan diplomatiyası bu gün böyük uğurlara imza atıb. Diplomatlarımız çalışdıqları ölkələrdə və beynəlxalq təşkilatlarda ölkəmizi layiqincə təmsil edir, Azərbaycanın haqlı mövqeyindən çıxış edirlər. Azərbaycanın dünyadakı mövqeləri möhkəmlənir. Bu gün Azərbaycan çox müsbət beynəlxalq imicə malik olan bir ölkədir. Dünya birliyi tərəfindən Azərbaycana böyük rəğbət bəslənilir. ADA Universitetinin prorektoru Fariz İsmayılzadə təmsil etdiyi təhsil ocağının gənc diplomatların yetişdirilməsində oynadığı roldan danışıb.

Qeyd edək ki, tədbir iştirakçıları Fəxri xiyabanda ümummilli lider Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanını ziyarət ediblər.

Tələbələrə Ulu Öndər Heydər Əliyevin zəngin irsi barədə daha geniş məlumatın verilməsi məqsədilə onların Heydər Əliyev Mərkəzinə ekskursiyası planlaşdırılıb. Habelə Bakı Media Mərkəzi tərəfindən ərsəyə gətirilmiş, baş prodüseri Arzu Əliyevanın olduğu "Əbədi ezamiyyət" sənədli filminin nümayişi nəzərdə tutulub.

# Gürcüstanın Azərbaycandakı səfiri Xarici İşlər Nazirliyinə çağırılıb

İyulun 14-də Gürcüstandan olan bir qrup şəxsin Azərbaycan Respublikası istiqamətində dövlət sərhədini pozaraq Azərbaycan ərazisində yerləşən Keşikçidağ mağaralar kompleksi yaxınlığında xidmət aparan sərhəd naryadına hücum etməsi və onları nalayiq ifadələrlə təhqir etməsi ilə bağlı Gürcüstanın ölkəmizdəki səfiri Xarici İşlər Nazirliyinə çağırılıb və məsələ ilə bağlı müvafiq izahat istənilib.

Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

"Təəssüf hissi ilə qeyd edirik ki, bu cür hərəkətlərə yol verilməsi Azərbaycan və Gürcüstan arasında mövcud olan strateji tərəfdaşlıq münasibətlərinin ruhuna tamamilə ziddir və bunu iki ölkə arasında qarşıdurmaya yönəlmiş təxribat kimi qiymətləndiririk", - deyə nazirliyin məlumatında bildirilir.

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu insidentin araşdırılaraq müvafiq tədbirlərin görülməsini və görülmüş işlərə dair nazirliyin məlumatlandırılmasını qarşı tərəfdən tələb edib.

# *DSX:* "Gürcüstan vətəndaşları tərəfindən Azərbaycan sərhəd naryadına qarşı insident törədilib"

İyulun 14-də saat 14:50 radələrində Dövlət Sərhəd Xidmətinin (DSX) Sərhəd Qoşunlarının "Şəmkir" sərhəd dəstəsinin "Keşikçi qala" sərhəd zastavasının xidməti ərazisində Gürcüstan vətəndaşları tərəfindən Azərbaycan sərhəd naryadına qarşı insident törədilib.

Hadisə ilə əlaqədar təxirəsalınmaz tədbirlər görülüb. İnsident qısa müddətdə aradan qaldırılıb və DSX-nin şəxsi heyəti tərəfindən ərazidə təhlükəsizlik tədbirləri təmin edilib.

Azərbaycan və Gürcüstan sərhəd nümayəndələri arasında görüş keçirilib, baş vermiş hadisə birgə araşdırılıb. Gələcəkdə belə hallara yol verilməməsi üçün görülməli olan tədbirlər müzakirə edilib.

# IX Beynəlxalq Multikulturalizm Yay Məktəbi başlayıb

İyulun 15-də Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi (BBMM) “Bakı Mədəniyyətlərarası Gənclər Forumu: Dinlərarası dialoqdan fəaliyyətə doğru” adlı IX Beynəlxalq Multikulturalizm Yay Məktəbi layihəsinə başlayıb.

AZƏRTAC xəbər verir ki, IX Beynəlxalq Multikulturalizm Yay Məktəbi Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Böyük Britaniyada fəaliyyət göstərən Gənclər Arasında Ümumi Söz (ACWAY) beynəlxalq təşkilatı və Azərbaycan Respublikasının Gənclər Fondu ilə birgə təşkil olunub.

Yay məktəbi çərçivəsində “Bakı Mədəniyyətlərarası Gənclər Forumu: Dinlərarası dialoqdan fəaliyyətə doğru” mövzusunda I Beynəlxalq Gənclər Forumu keçirilib.

Forumda çıxış edən Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfov Azərbaycanda multikulturalizm ənənələrindən bəhs edib. O qeyd edib ki, Azərbaycanda müxtəlif dinlərə və millətlərə mənsub insanlar əsrlərdir birgə yaşayırlar. Azərbaycan multikulturalizmi dövlət siyasətinin tərkib hissəsi elan edən çox az ölkələrdən biridir.

Şöbə müdiri, eyni zamanda, Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə həyata keçirilən “Bakı Prosesi”nin əhəmiyyətindən danışıb. O vurğulayıb ki, müxtəlif qitələrdə yaşayan, fərqli etnik, mədəni, dini və linqvistik mənsubiyyəti olan ayrı-ayrı insanlar və qruplar arasında qarşılıqlı anlaşma çərçivəsində səmimiyyət və hörmətə əsaslanan fikir mübadiləsi üçün müsbət platforma yaradan “Bakı Prosesi” mədəniyyətlərarası dialoqun inkişafı baxımından böyük önəm kəsb edir. “Bakı Prosesi” çərçivəsində keçirilən tədbirlər dinlərarası dialoqun inkişafına böyük töhfə verib.

Etibar Nəcəfov Beynəlxalq Multikulturalizm Yay və Qış məktəblərinin önəmindən danışaraq bildirib ki, müxtəlif millətlərdən olan gənclərin bir araya gəlmələri çox əhəmiyyətlidir. Bu, onlar arasında dialoqun, dostluğun yaranmasına xidmət edir.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov qeyd edib ki, BBMM yarandığı gündən Prezident İlham Əliyevin qarşıya hədəf kimi qoyduğu Azərbaycan multikulturalizminin dünyada tanıdılması, beynəlxalq arenada təbliği və təşviqi ilə bağlı əhəmiyyətli layihələr reallaşdırır. Mərkəzin önəmli layihələrindən biri də artıq ənənəyə çevrilən, mütəmadi olaraq ildə iki dəfə təşkil edilən Beynəlxalq Multikulturalizm Qış və Yay məktəbləridir. 2019-cu ilin yaz semestrində “Azərbaycan multikulturalizmi” və “Multikulturalizmə giriş” fənlərinin tədris olunduğu yerli və xarici universitetlərdə təhsil alan tələbələrin qatıldıqları IX Beynəlxalq Multikulturalizm Yay Məktəbi iyulun 15-dən 21-dək Bakı şəhəri ilə yanaşı, Oğuz, Şəki və Qəbələ rayonlarında fəaliyyət göstərəcək. Forum çərçivəsində dinlərarası və mədəniyyətlərarası dialoqun inkişafına həsr olunan seminar və müzakirələr keçiriləcək.

Azərbaycan Respublikası Gənclər Fondunun icraçı direktoru Fərid Cəfərov qeyd edib ki, multikulturalizm və tolerantlıq tarixən azərbaycanlıların həyat tərzi olub. Şərqlə Qərbin qovuşuğunda yerləşən ölkəmiz müxtəlif dinlərin, millətlərin yaşadığı məkandır. Azərbaycanda gənclər cəmiyyətin fəal üzvləridir və onlar tolerantlıq ruhunda böyüyürlər. Təkcə ölkəmizdə deyil, həmçinin bir sıra beynəlxalq tədbirlərdə də gənclərimiz tolerantlıq və multikultural dəyərlərin təbliğ edilməsində böyük rola malikdirlər. Fərid Cəfərov Gənclər Fondu tərəfindən tolerantlıq və multikulturalizm ənənələrinin təşviqi istiqamətində müxtəlif layihələr reallaşdırıldığını diqqətə çatdırıb.

Gənclər Arasında Ümumi Söz beynəlxalq təşkilatının direktoru Ravaad Mahyub bu önəmli tədbirin təşkilinə görə Azərbaycan hökumətinə və Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinə minnətdarlığını bildirib. O deyib ki, müxtəlif dinlərə və millətlərə mənsub insanların bir-birilərinə münasibətdə qarşılıqlı hörmət və anlayış göstərmələri tolerantlıq üçün əsas şərtdir. Direktor 2016-cı ildən bugünə kimi ACWAY-ın yüzdən çox tədbir keçirdiyini, BMT və digər beynəlxalq təşkilatlar, həmçinin Azərbaycan Respublikasının Gənclər Fondu ilə əməkdaşlıq şəraitində çalışdığını bildirib. Sonra ACWAY-ın fəaliyyətindən bəhs edən videoçarx nümayiş olunub.

“Striling” Fondunun direktoru Edvard Rou bildirib ki, Azərbaycanda ilk dəfə olmasına baxmayaraq, burada gördüyü qonaqpərvərlik və tolerant mühit onda böyük təəssürat yaradıb. O, “Striling” Fondunun dinlərarası və mədəniyyətlərarası dialoq sahəsində həyata keçirdiyi layihələrdən bəhs edib. Fondun rəhbəri müxtəlif dinlərə, mədəniyyətlərə mənsub olmalarına baxmayaraq, insanların sülh şəraitində yaşamaq kimi ümumi məqsədlərinin olduğunu bildirib. Əlavə edib ki, bu prinsip cəmiyyətimizin inkişafı üçün vacibdir.

Sonra Azərbaycanla bağlı “Tolerantlıq diyarı” adlı videoçarx nümayiş olunub.

Forum işini bölmə iclasları ilə davam etdirib.

# Polis Akademiyasının əyani şöbəsini bitirmiş məzunlar orta rəis heyəti vəzifələrinə təyin olunublar

İyulun 15-də Daxili İşlər Nazirliyində (DİN) bu il Polis Akademiyasının əyani şöbəsini bitirmiş məzunların paytaxtın polis orqanlarında orta rəis heyəti vəzifələrinə təyin olunmaları ilə əlaqədar tədbir keçirilib.





DİN-in mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, tədbirdə çıxış edən Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov iştirakçıları əlamətdar hadisə - zabit rütbələrinə layiq görülmələri, özlərinə çox şərəfli peşə və həyat yolu seçmələri münasibətilə təbrik edərək təyinatın şəffaflıq, aşkarlıq və ədalət prinsipləri əsasında gerçəkləşdiyini, son illər bu praktikadan geniş istifadə olunduğunu xatırladıb.

Daxili İşlər naziri ölkə rəhbərliyinin gənclərə hər zaman diqqət və qayğı göstərdiyini, yüksək mənəvi, iş keyfiyyətlərinə malik bacarıqlı, istedadlı gənclərin dövlət idarəçiliyində, o cümlədən daxili işlər orqanlarında xidmətdə irəli çəkilmələri üçün zəruri addımların atıldığını, hazırkı tədbirin də bunun bariz nümunəsi olduğunu diqqətə çatdırıb.

DİN-in Baş Kadrlar İdarəsinin rəisi, polis general-mayoru Rafiq Abbasov nazirliyə Bakıda qeydiyyatda olan 41 məzunun dəvət edildiyini bildirib, vakant vəzifələrin və namizədlərin siyahısını elan edib.

Sonra püşkatma yolu ilə təyinat keçirilib. Polisin orta rəis heyəti vəzifələrinə iddiaçı olanlar həmin vəzifələrin qeyd edildiyi xüsusi zərfləri çəkib və ərazi polis orqanlarında vakant olan zabit vəzifələrinə təyinat alıblar.

Akademiyanı fərqlənmə diplomu və əla qiymətlərlə bitirmiş beş məzundan 1-i nazirliyin Baş Təşkilat-İnspeksiya İdarəsinə, 1-i Baş Cinayət Axtarışı İdarəsinə, 1-i Baş Kadrlar İdarəsinə, 2-si isə müstəntiq vəzifələrinə təyin ediliblər.

Tədbirə yekun vuran Daxili İşlər naziri gəncləri şərəfli olduğu qədər yüksək məsuliyyət, işgüzarlıq, mükəmməl nəzəri bilik və praktik bacarıq tələb edən orta rəis heyəti vəzifələrinə təyin olunmaları münasibətilə bir daha təbriklərini çatdırıb, konkret tapşırıq və tövsiyələrini verib. O, xüsusi qeyd edib ki, Ulu Öndər Heydər Əliyevin müəllifi olduğu, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən bu gün uğurla davam etdirilən cinayətkarlıqla qətiyyətli mübarizə, ölkəmizdə sabitliyin dönməzliyinin təmini, insan və vətəndaş hüquq və azadlıqlarının nümunəvi qorunması kursu daxili işlər orqanlarının da üzərinə böyük və məsul vəzifələr qoyur.

Nazir vətəndaşlara xidmətin şərəfli bir vəzifə olduğunu, digər hüquq mühafizə orqanları ilə birlikdə gərgin səylər hesabına respublikamızda əmin-amanlığın yaradıldığını, cəmiyyət həyatının bütün sahələrində müşahidə edilən hərtərəfli inkişafın əsasında Ulu Öndər və Prezident İlham Əliyevin vurğuladıqları kimi, məhz sabitlik amilinin dayandığını, bu istiqamətdə əldə olunmuş uğurların dövlət başçısı tərəfindən hər zaman yüksək qiymətləndirildiyini nəzərə çatdırıb.

Daxili İşlər naziri Vilayət Eyvazov gənc zabitlərə çətin və şərəfli xidmətlərində uğurlar arzulayıb, polis adını uca tutmalarını, öz üzərlərində işləyərək bilik və təcrübələrini daim artırmalarını, ən müasir informasiya texnologiyalarına yiyələnmələrini, vətəndaşların müraciətlərinə həssaslıqla və operativ şəkildə yanaşmalarını, onlarla ünsiyyətdə, rəftarda hər zaman yüksək mədəniyyət və təmkinlik nümayiş etdirmələrini, ədalətli, obyektiv və dürüst olmalarını, fəaliyyətlərində peşəkar həmkarlarının təcrübəsindən yararlanmalarını tövsiyə edib.

Nazir əmin olduğunu bildirib ki, gənc zabitlər bu yöndə səylərini əsirgəməyəcək, dövlətçiliyə, anda, vətənə sədaqətlə xidmət edəcək, göstərilmiş etimadı layiqincə doğruldacaqlar.

# IX Beynəlxalq Multikulturalizm Yay Məktəbinin iştirakçıları Azərbaycandakı tolerant mühit barədə məlumatlandırılıb

İyulun 15-də Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfov IX Beynəlxalq Multikulturalizm Yay Məktəbinin iştirakçıları ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə şöbə müdiri Azərbaycandakı tolerant və multikultural mühit barədə məlumat verib. Bildirib ki, Azərbaycanda dinlərarası harmoniya, qədim tolerantlıq və multikulturalizm ənənələri mövcuddur. Ölkəmizdə ayrı-ayrı dinlərə və mədəniyyətlərə mənsub insanlar əsrlərdir qarşılıqlı anlaşma, sülh və əmin-amanlıq şəraitində yaşayırlar. Azərbaycanda məscidlərlə yanaşı, kilsələr, sinaqoqlar fəaliyyət göstərir, insanların dini etiqadlarını sərbəst şəkildə icra etmələri üçün hərtərəfli şərait yaradılıb.

Etibar Nəcəfov qeyd edib ki, Azərbaycanda tarixən mövcud olan bu ənənələrin qorunması və inkişafı, eləcə də multikultural dəyərlərin təbliği ölkə rəhbərliyinin daim diqqət mərkəzindədir. Multikulturalizm Azərbaycanın dövlət siyasəti və xalqın həyat tərzinə çevrilib. Ölkəmizdəki multikulturalizm mühiti bütün dünyaya nümunədir.

Görüşdə yay məktəbi iştirakçılarının sualları cavablandırılıb.

# Aqrar sektor həm də ixraca köklənir

Əvvəli 1-ci səh.

Ölkədə gedən bütün islahatlar Azərbaycan Prezidentinin gərgin əməyi sayəsində reallaşır. Amma dövlət başçısı belə hesab edir ki, hər bir fermer öz sahəsində yenilikçi olmalı, bazarın yeni çağırışlarına köklənməyi bacarmalıdır: “Bir çox hallarda onlar passivlik göstərirlər, təşəbbüs göstərmirlər, hətta yetişdirdikləri məhsulu xaricə aparmağa belə tənbəllik edirlər. Gözləyirlər ki, kimsə gəlib onların qapısını döyəcək, onların məhsulunu alacaq. Onlar özləri getməlidirlər, bazarları axtarmalıdırlar, kontraktlar imzalamalıdırlar, təmaslar qurmalıdırlar. Biz hətta xarici ölkələrin televiziyalarında kənd təsərrüfatı məhsullarının reklamını da dövlət hesabına edirik. Onu da etmirlər. Yaxşı, indi bir az hərəkətə gəlsinlər. Dövlət bu qədər səy göstərir, dəstək verir, vəsait ayırır, siyasi dəstək göstərir”.

Dövlət başçısı iradlarında haqlıdır. Sahibkarın da, fermerin də işinə münasibəti dəyişməlidir. Bunu zaman tələb edir. Bu baxımdan kiçik torpaq paylarına malik olan fermerlərin bəzi problemləri var. Həmin problemlərin böyük bir qismi iqtisadi biliklərin azlığı, iş qurmaq bacarığı, hətta kredit almaq üçün yetərli təcrübənin olmamasıdır. Torpaq payı var, amma fermer ondan necə faydalanmağın, xeyir götürməyin yollarını bilmədiyindən əziyyət çəkir.

Dövlət bu sahədə də qayğısını əsirgəmir. Ailə Biznesinə Asan Dəstək (ABAD) mərkəzləri yaradılır. Bunun həm sahibkarlığın, həm də biznesin inkişafı üçün böyük əhəmiyyəti var. Artıq bu il 5-6 min insan özünüməşğulluq proqramı ilə əhatə olunacaq, ailəsi ilə birlikdə öz iş yerini yaradacaq, əlinin zəhməti ilə dolanışığını təmin edəcək.

Beləliklə, dövlət aqrar sektorda köklü islahatları davam etdirir. Bundan hər bir fermerin yararlanmaq şansı var. Əsas odur ki, qolunu çırmalayıb öz işinə can yandırasan.

**Bahadur İMANQULİYEV,**
**“Azərbaycan”**

# Şəkidə baş vermiş hadisə və xəsarət alan şəxslərin müalicəsi Azərbaycan Prezidentinin xüsusi nəzarətindədir

Respublika Baş Prokurorluğunun və Fövqəladə Hallar Nazirliyinin mətbuat xidmətləri Şəki Xan Sarayının qarşısında baş vermiş hadisə ilə bağlı birgə məlumat yayıb.

AZƏRTAC xəbər verir ki, məlumatda iyulun 14-də saat 12 radələrində Şəki Xan Sarayı ərazisində 1530-cu ilə aid ağacın təxminən 50 santimetr diametrində olan budağının qəflətən qırılaraq həmin vaxt sarayın həyətində olan turistlərin üzərinə düşdüyü bildirilir. Qeyd edilir ki, nəticədə 19 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri alaraq təcili olaraq Şəki Mərkəzi Rayon Xəstəxanasına yerləşdirilib. Onlara ilkin təcili-tibbi yardım göstərilib. Dörd nəferin səhhəti ağır olduğundan onlar reanimasiya şöbəsinə yerləşdirilib.

Bakı şəhərindən FHN-in helikopterləri vasitəsilə Səhiyyə Nazirliyinin təcrübəli reanimatoloq, neyrocərrah, travmatoloq və digər həkimləri Şəki rayonuna göndərilib. Eyni zamanda, baş vermiş hadisənin səbəblərinin müəyyənləşdirilməsi məqsədilə Fövqəladə Hallar, Ekologiya və Təbii Sərvətlər nazirliklərinin, Dövlət Turizm Agentliyinin və Baş Prokurorluğun məsul şəxsləri Şəki şəhərinə ezam olunublar.

Hadisə ilə əlaqədar Baş Prokurorluğun 492 55 40, FHN-in 112 və Səhiyyə Nazirliyinin 498 78 46 saylı qaynar xətt əlaqə mərkəzləri yaradılıb.

Baş vermiş hadisə və xəsarət alan şəxslərin müalicəsi dövlət başçısının xüsusi nəzarətindədir.

# Şəki Xan Sarayının həyətindəki ağacın budaqlarının qırılmasına əlverişsiz hava şəraiti səbəb olub

İyulun 15-də Azərbaycan Respublikasının Baş Prokurorluğu ötən gün Şəki Xan Sarayının ərazisindəki ağacın budaqlarının qırılması nəticəsində çoxlu sayda insanın xəsarət alması ilə bağlı yeni məlumat yayıb.

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a daxil olan məlumatda bildirilir ki, iyulun 14-də saat 12 radələrində Şəki Xan Sarayının ərazisində ağacın budaqlarının qəflətən qırılaraq insanların üzərinə düşməsi nəticəsində 19 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri alaraq dərhal Şəki Rayon Mərkəzi Xəstəxanasına yerləşdirilib. Onlardan 13 nəfərə ilkin tibbi yardım göstərilərək evə buraxılıb. Digər 2 nəfərin Şəki Rayon Mərkəzi Xəstəxanasında, 4 nəfərin isə Bakıdakı Mərkəzi Klinik Xəstəxanada yüksəkixtisaslı mütəxəssislərin cəlb olunması ilə intensiv müalicələri davam etdirilir.

Baş vermiş hadisə ilə əlaqədar rayon prokurorluğunun əməkdaşları, eləcə də aidiyyəti nazirliklərin mütəxəssisləri dərhal həmin ünvana gedərək, ilk növbədə, xəsarət alan şəxsləri təcili-tibbi yardım maşınları ilə xəstəxanaya çatdırıblar. Hadisə yerinə baxış keçirilib, qırılmış budaqlardan nümunələr, habelə digər əhəmiyyət kəsb edən maddi sübutlar və izlər götürülüb, mütəxəssislərin ilkin rəyləri alınıb.

Aparılmış ilkin araşdırmalarla müəyyən edilib ki, hündürlüyü 34 metr olan Xan çinarının 21 metr hündürlükdə yerləşən 0,5 metr diametrli budağı qəflətən qoparaq aşağıda - 17 metr hündürlükdə olan nisbətən kiçik diametrli budağı da qırıb, nəticədə hər iki budaq insanların üzərinə düşüb.

Mütəxəssislərin ilkin rəyinə əsasən, budaqların qırılmasına əlverişsiz hava şəraiti səbəb olub. Belə ki, iyulun 12-də başlayan və sürəti saniyədə 8-12 metr olan küləklə müşayiət olunan, xüsusilə iyulun 14-də səhər saatlarından başlayaraq 3 saat ərzində aylıq normanın 54 faizi miqdarında (32 mm) aramsız yağış yağıb.

İlkin müayinələrə əsasən müəyyən edilib ki, qırılmış əsas budaq sağlam olub, qurumağa və hansısa fiziki təsirlərə məruz qalmayıb. Həmin budaqlarda virus və ya bakterioloji proseslərin gedib-getməməsinin müəyyən edilməsi üçün budaqlardan nümunələr götürülərək bioloji tədqiqatın keçirilməsi məqsədilə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mütəxəssisləri cəlb olunmaqla məhkəmə-bioloji və məhkəmə-trasoloji ekspertizaları təyin edilib. Ekspertizaların keçirilməsi Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzinə həvalə olunub.

Hazırda araşdırmalar davam etdirilir.

Bu barədə düşünək

# Müsabiqə keçirmək, yoxsa inşa yazdırmaq

Əvvəli 1-ci səh.

Jurnalistlərin peşə bayramına ayrı-ayrı nazirliklər, komitələr, ASC-lər, iri şirkətlər də diqqətsiz qalmırlar. Onlar da müxtəlif forma və məzmunlu tədbirlərlə KİV təmsilçilərinə sayğılarını nümayiş etdirirlər. Həmin tədbirlər sırasında isə keçirilən yazı müsabiqələrinin xüsusi yeri, üstün çəkisi var və qeydlərimiz də məhz bu barədədir.

Öncə onu bildirək ki, belə müsabiqələrin keçirilməsinin jurnalist peşəsinə hörmətdən və eyni zamanda dövlətin bu sahəyə göstərdiyi xüsusi qayğıya dəstək verməkdən irəli gəldiyinə zərrə qədər şübhəmiz yoxdur. İkincisi, məhz bu səmimi münasibətə və diqqətə görə həmin müsabiqələrin təşkilatçılarına təşəkkür edirik!

Dünya təcrübəsində media müsabiqələrinin keçirilməsinin, KİV nümayəndələrinin mükafatlandırılmasının çoxsaylı nümunələri var. O üzdən bu nümunələri fərqləndirən və birləşdirən cəhətlər də az deyil. Həmin nümunələri sadalayıb o cəhətlər barədə uzun-uzadı yazmaq fikrimiz yoxdur. Amma bir cəhət var ki, onun üzərində dayanmamaq mümkün deyil. Bu həmin cəhətdir ki, oxuduğunuz qeydlərin qələmə alınmasına səbəb olub. Nəhayət, keçək əsas mətləbə.

Mətləbinsə əsası odur ki, heç bir ölkədə jurnalistləri və ya media qurumlarını mükafatlandırmaq üçün keçirilən müxtəlifyönlü tədbirlər öncəsi KİV nümayəndələri, yaxud qurumları üçün hansısa mövzu seçilmir, şərtlər irəli sürülmür. Tədbirin təşkilatçıları sadəcə müəyyən bir dövr, əsasən də il ərzində kütləvi informasiya vasitələrini izləyir və ictimai maraqlara cavab verən mövzular üzrə fərqlənənləri müəyyən edərək mükafatlandırırlar. Yəni jurnalistlərin və ya media qurumlarının hansı yazılarının, yaxud verilişlərinin gələcəkdə hansı münsiflər heyətinin diqqətini çəkərək qalib elan ediləcəklərindən xəbərləri olmur. Onlar sadəcə hər gün cari işləri ilə məşğul olurlar və özləri də bilmirlər ki, bu zaman həm də gələcək müsabiqələrin subyektinə çevrilirlər.

Onu da qeyd edək ki, belə qayda təkcə KİV üçün keçirilən müsabiqələrdə tətbiq olunmur. Müqayisə səviyyə sarıdan yerinə düşməsə də, örnək çəkək: dünyaca mötəbər Nobel mükafatını verən eyniadlı komitə və cəmiyyətin heç ağlına gələrmi ki, bir il əvvəldən ayrı-ayrı sahələr üzrə... mövzular və şərtlər elan etsin?! Yaxud götürək Oskardan tutmuş Kannacan beynəlxalq kino festivallarını. Bu nüfuzlu kinoyarışmalarının qaliblərinin təşkilatçıların şərt kimi irəli sürdükləri mövzu əsasında film çəkdiklərini təsəvvür edirsinizmi?! Təbii ki, nəinki qəribə, hətta ağlagəlməz suallardır.

Bax, bizim nazirlik və komitələrin həm Milli Mətbuat Günü ərəfəsində, həm də ara-sıra KİV arasında keçirdikləri müsabiqələrdə şərt kimi tətbiq etdikləri qaydalar da həmin cavabı məlum kinayəli suallardan doğan qəribəlikdən uzağa getmir. Bu cür müsabiqələr, o cümlədən təqdim olunan mövzular sanki hansısa jurnalistin peşəkarlığını, müraciət etdiyi mövzunun əhəmiyyətini, qayəsini ictimaiyyətə çatdırmaq bacarığını qiymətləndirməyə yox, təşkilatçının təbliğinə xidmət edir. Həmin ehtimalı artıran müsabiqə yazılarının təkcə məzmunu yox, eyni zamanda forması, həcmi, təqdimatı üçün irəli sürülən şərtlərdir. Məqalənin sonunda yazının filan qurum tərəfindən filan mövzuda keçirilən müsabiqəyə təqdim olunmasının göstərilməsinin vacibliyi şərti isə bir ayrı sualdır. Başa düşmək olmur ki, təşkilatçıların axtardıqları nədir - aktual mövzunun ictimaiyyətə peşəkarcasına çatdırılması, yoxsa özünün müsabiqə keçirməyinin nümayişi?

Bu suala cavab vermək üçün redaksiyamızdan bir misal çəkək: əməkdaşımız yaxın keçmişdə dünyanın çoxdan ölkəmizdə fəaliyyət göstərən köklü-köməcli törəmə şirkətlərindən birinin vacib layihəsi barədə məqalə yazmışdı. Qəzetimizdə dərc olunan məqalə şirkətin xarici mütəxəssisləri tərəfindən o qədər bəyənilmişdi ki, onlar yazını öz ölkələrindəki nəşrlərin birində dərc etdirmişdilər. Az müddət sonra sözügedən şirkət elə həmin mövzuda müsabiqə elan etmiş və bu məqalə... ondan kənar qalmışdır. Səbəbi məqalənin məxsusi müsabiqə üçün yazılmaması olmuşdur.

Belə misalların sayını artırmaq da olar. Bizim çoxsaylı KİV-də hər gün sanballı, ictimai rəyə təsir göstərən, cəmiyyətə doğru-dürüst məlumat verən, hadisələri obyektiv işıqlandırıb şərh edən məqalələrə rast gəlmək mümkündür. Sosial-iqtisadi mövzulardan başlamış mədəniyyət və mənəviyyata, təhsil və səhiyyəyə, bir sözlə, həyatımızın bütün sahələrinə aid həmin məqalələr arasında mükafata layiq olanlar da az deyil. Əgər belədirsə, yazılmışları seçib qiymətləndirmək orta məktəb şagirdinə inşa yazdırmağa bənzəyən müsabiqə elan etməkdən daha məqbul deyilmi?!

**Raqif MƏMMƏDLİ,**
**“Azərbaycan”**

# Çəkilən zəhmət bəhrəsini verir

Əvvəli 1-ci səh.

Ümumiyyətlə, Qazax rayonunda taxılçılığın inkişafına diqqətlə yanaşılır. Rayonda elə təsərrüfatlar var ki, hər il bu sahədə yüksək göstəricilərə nail olur. Məsələn, Daş Salahlı kəndinin sakini Asif Yusifov ona məxsus sahələrdə hər il bol taxıl yetişdirir. Təsərrüfat sahibi keçən il 95 hektarda buğda, 5 hektarda arpa əkmiş və həmin sahələrdən 3486,5 ton buğda, 122,5 ton arpa götürmüşdür. Buğdanın məhsuldarlığı 36,7, arpanın məhsuldarlığı 24,5 sentnerə çatmışdır. Fermer taxıl sahələrinin ərazisini 10 hektar genişləndirərək cari ilin məhsulu üçün 40 hektarda arpa, 70 hektarda buğda əkmişdir.



Bu kəndin digər sakini Elxan Cürənli də taxılçılıqda böyük təcrübəyə malikdir. O, keçən il 120 hektarda buğda, 100 hektarda arpa yetişdirmiş, 4404 ton buğda, 2450 ton arpa istehsal etmişdir. Fermer deyir ki, texnika sarıdan heç bir çətinliyi yoxdur. Heyvandarlıqla da məşğul olan təsərrüfat sahibi istehsal etdiyi məhsulun bir hissəsini təsərrüfatındakı heyvanlar üçün saxlamaq, bir hissəsini isə satmaq fikrindədir.

Taxıl biçinində öndə gedən təsərrüfat sahiblərindən biri də Birinci Şıxlı kənd sakini Natiq Məmmədovdur. Keçən il 25 hektar sahədən 52 ton arpa götürən təsərrüfat sahibi bu il də məhsuldarlığın yüksək olduğunu deyir: “Hazırda ilkin göstəricilər pis deyil. Hələlik hər hektardan 21 sentnerədək arpa götürülür”. Natiq Məmmədov da istehsal etdiyi taxılın bir hissəsini yaratdığı heyvandarlıq təsərrüfatında istifadə etmək, bir hissəsini də satışa çıxarmaq fikrindədir.

Ümumiyyətlə, Qazax rayonunda yetişdirilmiş taxılın vaxtında və optimal müddətdə yığılması üçün bütün imkanlardan istifadə edilir. Biçinin mütəşəkkil aparılması üçün rayon icra hakimiyyətində qərargah və qaynar telefon xətti yaradılmışdır. Həmçinin biçin zamanı yarana biləcək hər hansı problemin operativ aradan qaldırılması üçün mütəxəssislərdən ibarət səyyar briqada fəaliyyət göstərir. Bunun da nəticəsində məhsul yığımı başlayandan boşdayanma hallarına rast gəlinməyib.

**Sabir ƏLİYEV,**
**“Azərbaycan”**

# Heydər Əliyev Fondunun təşkilatçılığı ilə Kannda Azərbaycan mədəniyyəti günləri başlayıb







Heydər Əliyev Fondunun, Fransadakı səfirliyimizin və Kann şəhər meriyasının təşkilatçılığı ilə dünya şəhəri adlandırılan Kannda Azərbaycan mədəniyyəti günləri başlayıb.

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun Kann Festivallar və Konqreslər Sarayı yaxınlığındakı "Dəniz Vağzalı" (Gare maritime) sərgi pavilyonunda "Yeni kəşflər: Azərbaycan xalçaçılığında yeni motivlər" adlı xalça sərgisinin açılışı olub.

Sərginin açılışında Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov, Kann şəhər merinin müavini Frank Şıkli çıxış ediblər.

Anar Ələkbərov Heydər Əliyev Fondunun fəaliyyəti və həyata keçirdiyi layihələr haqqında məlumat verib. O, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın mədəniyyətimizin dünyada tanıdılması istiqamətində verdiyi töhfələrdən danışıb. O, fondun müxtəlif ölkələrdə, eləcə də Fransada həyata keçirdiyi irimiqyaslı humanitar, sosial layihələrdən və tarixi abidələrin restavrasiyasına verdiyi töhfələrdən söz açıb. İcraçı direktor Azərbaycan xalçaçılıq məktəbinə, onun tarixinə toxunaraq bu sərginin böyük əhəmiyyət daşıdığını qeyd edib.

"Bir neçə gün əvvəl Bakıda UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası keçirildi. Sessiyada ölkəmiz üçün çox mühüm bir qərar qəbul edildi. Xan Sarayı ilə birgə Şəkinin tarixi mərkəzi UNESKO-nun Ümumdünya İrs Siyahısına daxil edildi. Bu gün Kann şəhərində təqdim edilən sərgidə də




məhz Şəki xalçaçılıq məktəbi təqdim olunur. Fondun iki ildən çox müddətdəki zəhmətinin bəhrəsi olan bu sərgidə Xalq rəssamı Eldar Mikayılzadənin Azərbaycan xalçalarının Şəki qrupundan olan 13 xalça və xalça eskizləri nümayiş olunur", - deyə A.Ələkbərov vurğulayıb. O, sərginin ərsəyə gəlməsində əməyi olan hər kəsə, o cümlədən sərgilənən xalçaları ərsəyə gətirən toxuculara, Kann şəhər meriyasının əməkdaşlarına təşəkkürünü bildirib.

Kannda artıq ənənəyə çevrilmiş Azərbaycan mədəniyyəti günlərinin əhəmiyyətinə toxunan Frank Şıkli bildirib ki, mədəniyyət xəzinəmizin yaxından tanınmasını təşviq edən belə layihələr hər iki xalqın daha da yaxınlaşmasına, ikitərəfli münasibətlərin zənginləşməsinə töhfə verir. O, ölkəmizdə qədim köklərə malik ənənəmizin qorunub saxlanılmasına göstərilən qayğı və diqqətin şahidi olduğunu bildirib. Frank Şıkli Bakının ənənə və innovasiyaların vəhdəti olduğunu vurğulayıb.

Qeyd edək ki, "Dəniz vağzalı" pavilyonunda təşkil edilmiş "Yeni kəşflər: Azərbaycan xalçaçılığında yeni motivlər" adlı sərgidə xalçaçı-rəssam, Xalq rəssamı Eldar Mikayılzadənin Şəki qrupuna aid 13 xalça eskizi, onların əsasında toxunan xalçalar və texniki rəsmlər nümayiş etdirilir. E.Mikayılzadə yeni Şəki qrupuna aid xalça eskizlərində Şəki Xan Sarayı və Şəkixanovlar evindəki divar rəsmlərinə, şəbəkələrə müraciət edib.

Avqustun 18-dək davam edəcək sərgi çərçivəsində bu layihəyə həsr edilmiş fransız və ingilis dillərində kataloq ziyarətçilərə təqdim olunacaq. Sərgiyə baxmağa gələn Kann şəhərinin sakinləri və turistləri layihənin hazırlanmasına dair sənədli filmlə də tanış ola biləcəklər.

---

## XV Avropa Gənclər Yay Olimpiya Festivalı

Baku 2019 EUROPEAN YOUTH OLYMPIC FESTIVAL





# 50 ölkə, 10 idman növü, 3600-dən çox atlet

### Bakı XV Avropa Gənclər Yay Olimpiya Festivalını qəbul etməyə hazırlaşır

Bir neçə gündən sonra ölkəmiz XV Avropa Gənclər Yay Olimpiya Festivalının estafetini qəbul edəcək. İyulun 21-27-də təşkil olunacaq və əsasən də 14-18 yaşlı gənc idmançıların mübarizə aparacağı yarışa ümumilikdə 50 Avropa ölkəsindən 3600-dən çox atlet və texniki nümayəndə heyəti qatılacaq. 12 arenada 10 idman növü üzrə (bədii gimnastika, atletika, basketbol, velosiped, həndbol, cüdo, üzgüçülük, tennis, voleybol, güləş) keçiriləcək yarışlara ümumilikdə 2500-dən çox könüllü cəlb olunacaq.










### Nümunəvi təşkilatçılıq modeli

2018-ci il mayın 15-də Azərbaycan Prezidenti İlham Əliyev Avropa Gənclər Olimpiya Festivalının 2019-cu ildə Bakı şəhərində keçirilməsi üzrə Təşkilat Komitəsinin yaradılması haqqında sərəncam imzalayıb. Təşkilat Komitəsinin ötən bir il ərzində məqsədyönlü fəaliyyəti digər təşkilatlara örnəkdir. Çünki əminliklə deyə bilərik ki, Avropa ölkələrinin federasiya nümayəndələri, idmançıları, şəhərimizin qonaqları Azərbaycanda aparılan hazırlıq işlərindən, onlar üçün yaradılan ideal şəraitdən, insanlarımızın qonaqpərvərliyindən, bir-birindən modern idman arenalarından, xüsusən də təntənəli açılış mərasimindən heyrətə gələcəklər.

Yarışların açılış mərasiminə bir biletin qiyməti 10-15, bağlanış mərasiminə isə 5-10 manatdır. Hər iki mərasim "Baku Crystal Hall"da keçiriləcək. Digər idman arenalarında təşkil ediləcək yarışları isə tamaşaçılar sərbəst şəkildə gəlib izləyə biləcəklər.

İdmançıların qalacaqları Atletlər Kəndi də onları qəbul etməyə tam hazırdır. Atletlər Kəndi I Avropa və IV İslam Həmrəyliyi oyunları zamanı idmançıların qaldıqları və yüksək səviyyədə şəraiti olan məkandır.

### Gənc idmançıları bir araya gətirən festival

Xatırladaq ki, Avropa Gənclər Festivalı ideyası gənclərə Olimpiya hərəkatını, dəyərlərini və ideallarını öyrətmək, təbliğ etmək üçün Jak Roq tərəfindən 1990-cı ildə irəli sürülmüşdü. 14-18 yaşlılar arasında gənc avropalı idmançıları bir araya gətirən yarış ilk dəfə 1991-ci ildə Belçikanın paytaxtı Brüsseldə keçirilib.

İki ildə bir dəfə (cüt deyil, tək illərdə) - qışda və yayda keçirilən Avropa Gənclər Olimpiya Festivalı Beynəlxalq Olimpiya Komitəsinin himayəsi ilə Avropa Olimpiya Komitəsi adından təşkil olunur. Festival digər qitələrdə keçirilən Asiya Gənclər Oyunları və ya Panamerika Gənclər Oyunları kimi ənənəni Avropada davam etdirmək imkanını yaradır.

Festivala evsahibliyi edən ölkə bütün yarışlarda əvvəlcədən təsnifat mərhələsi olmadan iştirak etmək hüququnu qazanır.

### Doğma divarlar növbəti zəfər meydanı olacaq

Azərbaycan təmsilçiləri Olimpiya festivallarında 1993-cü ildən çıxış etməyə başlayıblar. Atletlərimiz indiyədək iştirak etdikləri festivallarda yüksək nəticələr qazanıblar. Bu yarışlarda uğurlar əsasən cüdo və atletika idman növlərində əldə olunub. Azərbaycanın yeniyetmə idmançıları buna qədər keçirilmiş Avropa Yeniyetmələrinin 13 Olimpiya festivalından 10-da iştirak edib və ümumilikdə 45 medal (17 qızıl, 10 gümüş, 18 bürünc) qazanıblar. Bu idman yarışlarında əldə olunmuş 45 medaldan 38-i cüdoçularımızın (13 qızıl, 9 gümüş, 16 bürünc), 7-si isə atletlərin (4 qızıl, 1 gümüş, 2 bürünc) payına düşür.

Xatırladaq ki, 2015-ci ildə Gürcüstanın paytaxtı Tbilisidə təşkil olunan XIII Avropa Gənclərinin Olimpiya Festivalı atletlərimiz üçün uğurlu olmuşdu. İdmançılarımız 2 qızıl, 1 gümüş və 2 bürünc medal qazanmaqla ümumi turnir cədvəlində 22-ci yeri tutmuşdular.

2017-ci ildə Macarıstanın Gyor şəhərində keçirilən Yeniyetmələrin sayca XIV Olimpiya Festivalında isə qitənin 50 ölkəsindən 3600-ə qədər idmançı medallar uğrunda mübarizə aparıb. Komandamız yarışın yekununda 50 ölkə arasında 33-cü yeri tutub. 41 idmançı ilə turnirə yollanan yığmamız iki medalla kifayətlənməli olub. Cüdoçulardan 40 kq çəki dərəcəsində yarışan Vüsalə Kərimova festivalın gümüş medalına layiq görülüb. Adil Kərimli isə (-90 kq) bürünc medal qazanıb.

Rusiya yığması 30 qızıl, 19 gümüş və 12 bürünc medalla ümumi komanda hesabında birinci yeri tutub. 14 qızıl, 11 gümüş, 13 bürünc medal əldə edən İtaliya millisi ikinci olub. Ev sahibləri isə festivalda 13 qızıl, 14 gümüş və 14 bürünc medala yiyələniblər.

### Turnirin talismanları

Hər bir mötəbər idman yarışının talismanı da həmişə xüsusi diqqət mərkəzində olub. "Bakı-2019"un rəsmi talismanları Cırtdan və Bəbirdir. Tərcümədə "kiçicik" mənası daşıyan Cırtdan Azərbaycanda uşaqların ən populyar nağıl personajıdır. Həmyaşıd olan digər uşaqlardan balaca olmağına baxmayaraq, Cırtdan öz cəsarətindən və zəkasından ilhamlanır. O, güclü milli özünəməxsusluğu, dərrakəsi, hazırcavablığı, mübarizliyi və digərlərinə rəğbəti ilə seçilir. Nağılların birində Cırtdan Divin başını qataraq özünü və dostlarını xilas edir. O göstərir ki, gənc və balaca olmasına baxmayaraq qorxmaz qəhrəman ola bilər.

Qafqaz bəbiri isə Azərbaycanın füsunkar təbiətinin zənginliyini təşviq edəcək. Qafqaz bəbiri Azərbaycan faunasında ən yaxşı tanınan və haqqında geniş məlumat olan heyvan növlərindən biridir. Azərbaycan mifologiyasında bəbirin şəklinə tez-tez rast gəlmək olar. Bu heyvan təbii gözəllik, güc, qorxmazlıq və sürət rəmzidir. Keçmişdə Qafqazda geniş yayılmış bəbir hazırda yoxa çıxmaq üzrədir və Azərbaycanda, eləcə də regionda qorunan ən nadir cinslərdən birinə çevrilmişdir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

Azercell

# abunəçilərinin nəzərinə

● 16.08.2019-cu il tarixdən etibarən "Azercell Telekom" MMC-nin "Gecə" adlı internet paketinə, fakturasız (SimSim) və fakturalı xətt sistemində mövcud olan nömrələr üçün 2 AZN (ƏDV daxil) tariflər tətbiq olunacaq;

● 16.08.2019-cu il tarixdən etibarən fakturalı və fakturasız (SimSim) xətt sistemində mövcud olan nömrələr (korporativ abunəçilər istisna olmaqla) tərəfindən istifadə edilən müxtəlif internet paketlərinə abunəliyini dayandırmaq üçün nəzərdə tutulan "ay-" açar sözü vasitəsi ilə imtina qaydası ləğv olunacaq. Abunəçilər internet paketlərdən dərhal imtina etmək üçün "stop ay" yazıb (bu halda həm paketə abunəlik/avto-yeniləmə dayandırılır, həm də internet trafikinin qalığı dərhal ləğv olunur) 2525 qısa nömrəsinə göndərməlidirlər. Abunəçilər nömrələrinin balanslarına kifayət qədər şəffaf formada, müxtəlif xidmətlər vasitəsilə nəzarət etmək imkanına malikdirlər. İnternet trafikin balansını öyrənmək üçün 2525-ə boş (və ya BALANS sözünü yazıb göndərmək ilə) SMS göndərmək və ya telefonun ekranında *100#YES yığmaq lazımdır.

**Qeyd:** Abunəçilər göstərilən dəyişikliklər, Mobil İnternet Paketlərinin sifariş, başqası ilə əvəz etmə və imtina qaydası barədə, o cümlədən "Azercell Telekom" MMC tərəfindən təqdim edilən xidmətlər, tariflər və keçirilən kampaniyalar barədə ətraflı məlumatları rəsmi internet səhifəmizdən (www.azercell.com), həmçinin Müştəri Xidmətlərinə (MX ofisləri, həftənin 7 günü 24 saat ərzində fəaliyyət göstərən Telefon Mərkəzi) müraciət etməklə əldə etmək imkanına malikdirlər.


## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Aztelekom" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən 11 mart 2019-cu il tarixdə elan edilmiş "520 (beş yüz iyirmi) ədəd müxtəlif güclü kondisionerlərin satın alınması" üzrə açıq tender proseduru üzrə iddiaçılardan daxil olmuş təkliflərin qiymətləndirilməsi həyata keçirilmiş və tenderin qalibi "ABC-Telecom" MMC müəyyən edilmişdir.

"Aztelekom" MMC ilə "ABC-Telecom" MMC arasında 14 iyun 2019-cu il tarixli satınalma müqaviləsi imzalanmışdır.

*Tender komissiyası*

## *Sumqayıt Şəhər İcra Hakimiyyəti 221200 - Mətbəə xərcləri paraqrafı və 282100 - Sair xərclər ilə bağlı kotirovka sorğusu ilə malların satın alınmasını həyata keçirir*

Maraqlanan təşkilatlar (018) 6551448 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 24 iyul 2019-cu il saat 17:00-dək qəbul olunur.

**Ünvan: Sumqayıt şəhəri, Azərbaycan prospekti, 9**

*Tender komissiyası*

## B İ L D İ R İ Ş

"Azərbaycan" qəzetinin 25 aprel və 08 may 2019-cu il tarixli nömrələrində Azərbaycan Respublikasının Dövlət Neft Fondu (ARDNF) tərəfindən malların, işlərin və xidmətlərin satın alınması məqsədilə dərc edilmiş elanlar üzrə keçirilən 17 LOT-dan ibarət açıq tenderin nəticələrinə əsasən LOT 5: RSA və Cisco sistemlərinin lisenziyaların 1 il müddətinə uzadılmasının satın alınmasında **"R.İ.S.K. Elmi İstehsalat Şirkəti"** QSC qalib olmuşdur.

Qalib şirkətlə 10 iyul 2019-cu ildə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

*Tender komissiyası*

## B İ L D İ R İ Ş

"Azərbaycan" qəzetinin 16 fevral, 01 mart, 03 aprel, 23 aprel, 08 may və 29 iyun 2019-cu il tarixli nömrələrində "Azərsu" ASC-nin daxili vəsaiti hesabına avtoşinlərin və nəqliyyat vasitələri üçün ehtiyat hissələrinin satın alınması məqsədilə dərc edilmiş tenderdə iddiaçıların təklif müraciətlərinə əsasən, LOT-2 Ehtiyat hissələrinin satın alınması üzrə tender təkliflərinin və təklif təminatlarının qəbulu vaxtı 25 iyul 2019-cu il saat 16:00-a, təkliflərin açılışı isə 26 iyul 2019-cu il saat 16:00-a dəyişdirilmişdir.

**Əlaqələndirici şəxs - təchizat və satınalmaların idarəolunması departamentinin satınalmaların təşkili şöbəsinin mühəndisi Hikmət Qasımov (hikmat.qasimov@azersu.az (+99412) 431-47-67 (2249).**

*Tender komissiyası*


bakcell

## abunəçilərinin nəzərinə

"Bakcell" MMC öz abunəçilərinin nəzərinə çatdırır ki, 26 iyul 2019-cu il tarixdən etibarən "Daimonline", "SevinCin" və "CINeration" tariflərində bütün ölkədaxili zənglər üçün, "SevimliCİN", "QoşaCİN", "DoğmaCİN" və "Yeni Doğma" (bölgələr istisna olmaqla) tariflərində isə bütün şəbəkədaxili zənglər üçün tarifikasiya müddəti 1 dəqiqə təşkil edəcək. Həmçinin 02 avqust 2019-cu il tarixdən etibarən bütün "Klass" tarif planlarında zənglərin tarifikasiya müddəti 1 dəqiqə təşkil edəcək.


## Cəbhənin bəzi sahələrində atəşkəs rejimi ara-sıra açılan atəşlə pozulub

Sutka ərzində Ermənistan və Azərbaycan qoşunlarının təmas xəttində nisbi sakitlik müşahidə olunub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, cəbhənin bəzi sahələrində atəşkəs rejimi ara-sıra açılan atəşlə pozulub.

# Azərbaycan Respublikasının Dövlət Neft Fondu (ARDNF)

## *açıq tender elan edir*

**LOT 1:** İnformasiya texnologiyaları sistemlərinə (saxlanc avadanlıqları, müraciətlərin balanslaşdırılma sistemi, professional iclas avadanlıqları, İP telefoniya, virtual platforma, elektron məktub, İT təhlükəsizlik sistemləri və s.) texniki xidmətin satın alınması;
**LOT 2:** Fiziki təhlükəsizlik sahəsində perimetrə giriş-çıxışı idarəetmə və binanın girişinə nəzarət sistemi (CPAM ) və video-müşahidə sisteminə (VSOM) (Support lisenziyaları/Smartnet daxil olmaqla) texniki xidmətin satın alınması;
**LOT 3:** Nessus lisenziyasının 1 il müddətinə uzadılmasının satın alınması;
**LOT 4:** Transformatorlara, aşağı və orta gərginlikli elektrik qurğularına texniki xidmətin satın alınması;
**LOT 5:** Generatorlara texniki xidmətin (sərfiyyat malları və onların dəyişdirilməsi daxil olmaqla) satın alınması;
**LOT 6:** Sutəmizləyici qurğulara texniki xidmətin (sərfiyyat malları və onların dəyişdirilməsi daxil olmaqla) satın alınması;
**LOT 7:** Su nasoslarına texniki xidmətin satın alınması;
**LOT 8:** Bayraqlara və bayraq dirəklərinə texniki xidmətin satın alınması;
**LOT 9:** Tərcümə xidmətlərinin (yazılı və sinxron) satın alınması;
**LOT 10:** Elektron sənəd dövriyyəsi üçün proqram təminatının satın alınması;
**LOT 11:** Fondun əməkdaşları üçün Bakı şəhəri ərazisində yerləşən idman-sağlamlıq mərkəzləri üzrə bədən tərbiyəsi və idman xidmətlərinin satın alınması.

ARDNF Azərbaycan Respublikası Prezidentinin 29 dekabr 1999-cu il tarixli, 240 №-li Fərmanı ilə yaradılmış dövlət təsisatıdır. ARDNF barədə məlumatlarla http://www.oilfund.az ünvanında yerləşən internet səhifəsində tanış olmaq olar.

"Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən açıq tender ARDNF üçün malların, işlərin və xidmətlərin satın alınmasını əhatə edir.

Tender prosedurları **02 sentyabr 2019-cu il yerli vaxtla saat 10:00-da,** ARDNF-in yerləşdiyi Bakı şəhəri, Nizami rayonu, Heydər Əliyev prospekti, 165 ünvanında tender təkliflərinin (zərflərinin) açılması ilə başlanacaqdır.

Tenderdə iştirak üçün təqdim ediləcək sənədlər:

- tenderdə iştirak etmək üçün ərizə;
- podratçının tam adı, hüquqi statusu, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;
- podratçının ixtisas göstəricilərinə dair məlumat;
- podratçının son bir ildəki maliyyə vəziyyəti barədə bank arayışı;
- tender təklifi (tender təklifinin qiymətinin 1 faizi həcmində tender təklifinin təminatı (bank zəmanəti) ilə birlikdə).

Podratçılardan tələb olunan sənədlər (tender təklifi və təklifin təminatı istisna olmaqla) **22 avqust 2019-cu il yerli vaxtla saat 18:00-a** qədər faks, elektron poçt və ya adi poçtla, tender təklifləri (təklifin təminatı ilə birlikdə) isə hər LOT üzrə ayrı-ayrı zərflərdə olmaqla **30 avqust 2019-cu il yerli vaxtla saat 18:00-a** qədər ikiqat zərfdə bağlanmış və möhürlənmiş şəkildə AZ1029, Bakı şəhəri, Nizami rayonu, Heydər Əliyev prospekti, 165 ünvanda yerləşən ARDNF-ə təqdim edilməlidir.

Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində tərtib olunmuşdur.

İştirak haqqı LOT 1, LOT 2, LOT 3, LOT 4, LOT 5, LOT 6, LOT 10 və LOT 11 üzrə 100 (yüz) manat, LOT 7, LOT 8 və LOT 9 üzrə isə 50 (əlli) manat məbləğində müəyyən edilmişdir. Tenderin əsas şərtlər toplusu tenderdə iştirak edən podratçılara müvafiq LOT üzrə iştirak haqqı göstərilən hesaba ödənildikdən sonra təqdim ediləcəkdir.

**Azərbaycan Respublikasının Dövlət Neft Fondu**
**Ünvan: AZ1029, Bakı şəhəri, Nizami rayonu, Heydər Əliyev prospekti, 165**
**VÖEN: 9900041961**
**H/h: AZ84NABZ01360400000000001944**
**Bank: Azərbaycan Respublikası Mərkəzi Bankı**
**Kod: 501004**
**VÖEN: 9900071001**
**M/h: AZ74NABZ01451700000000001944**
**SWIFT BIK: NABZAZ 2C**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Podratçıların səlahiyyətli nümayəndələri tender təkliflərinin (zərflərin) açılmasında iştirak edə bilərlər.

Tender ilə əlaqədar suallar və sorğular TSK2019@oilfund.az ünvanlı elektron poçta və ya (+994 12) 565-87-55 nömrəli faksa göndərilə bilər. Əlaqə telefonu: (+99412) 498-77-53, əlaqələndirici şəxslər: LOT 1 üzrə Ülvi Abdullayev (dax.: 1210), LOT 2 və LOT 3 üzrə Nailə Məmmədli (dax.: 9005), LOT 4, LOT 5, LOT 6, LOT 7, LOT 8 və LOT 9 üzrə Elşad Bağırov (dax.: 1010), LOT 10 üzrə Çəməngül Mustafayeva (dax.: 1001), LOT 11 üzrə Səidə Ağayeva (dax.: 8001), hüquqi məsələlər üzrə isə Kəmalə Rəhimova (dax.: 8023).

*Tender komissiyası*

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən "Azərbaycan" qəzetinin 21.05.2019-cu il və 07.06.2019-cu il tarixli nömrələrində dərc edilmiş 3 LOT-dan ibarət açıq tender aşağıdakı LOT-lar üzrə Tender komissiyasının 10 iyul 2019-cu il tarixli qərarı ilə "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 11.1-ci maddəsinə uyğun olaraq baş tutmamış hesab edilmişdir:

**LOT 1:** Azərbaycan Respublikasının Mərkəzi Bankında xəzinə infrastrukturunun fəaliyyətini təmin etmək üçün elektrikli yükqaldıranların satın alınması;

**LOT 3:** Azərbaycan Respublikasının Mərkəzi Bankında dizayner studiyası üçün fotoaparatın və onun linzasının satın alınması.

*Tender komissiyası*

## ALLAH RƏHMƏT ELƏSİN!

"Azərbaycan" qəzeti redaksiyasının kollektivi iş yoldaşları Bahadur İmanquliyevə əzizi

**VENERA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Milli Məclisin deputatı Nəsib Məhəməliyev Milli Məclisin deputatı Hüseynbala Mirələmova qayınatası

**ATAXAN ŞİRİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov və professor-müəllim heyəti Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin aparat rəhbəri Cabbar Musayevə anası

**NƏRGİZ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi cəmiyyətin əməkdaşı Fuad Hüseynova əzizi

**AFAQ İLYASOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Yeni Azərbaycan Partiyasının İcra Katibliyinin kollektivi iş yoldaşları Nurcahan Cəfərovaya anası

**HƏLİMƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin rəhbərliyi və kollektivi aparat rəhbəri Rauf Quliyevə əzizi

**RƏHMAN QULİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Mirənvər Mahmudov və Xəyal Rzayev Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin aparat rəhbəri Cabbar Musayevə anası

**NƏRGİZ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Memarlar İttifaqının İdarə Heyəti Memarlar İttifaqının üzvü

**HACIƏMİ HACI OĞLU ATAKİŞİYEVİN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov, komissiyanın üzvləri və katibliyin rəhbərliyi Milli Məclisin deputatı Hüseynbala Mirələmova qayınatası

**ATAXAN ŞİRİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Rövzət Qasımov Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin aparat rəhbəri Cabbar Musayevə anası

**NƏRGİZ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Texniki Universitetinin rektorluğu və Həmkarlar İttifaqı Komitəsi Azərbaycan Texniki Universitetinin nəzdində Bakı Texniki Kollecin direktor müavini

**ARİF HƏSƏNOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Auditorlar Palatasının sədri Vahid Novruzov Yasamal Rayon İcra Hakimiyyətinin başçısı Əziz Əzizova qayınatası

**KAMİL MƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 8903
Sifariş 2361
Qiyməti 40 qəpik